# Yoluxma sayı yenidən artıb, 29 nəfər ölən var

833 nəfər müalicə olunaraq sağalıb



**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1 904 yeni yoluxma faktı qeydə alınıb, 1 833 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 29 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 576 703 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 541 327 nəfər müalicə olunaraq sağalıb, 7 686 nəfər vəfat edib, aktiv xəstə sayı 27 690 nəfərdir.*



## Daha 6 qazimiz müalicə üçün Türkiyəyə göndərilib

**Vətən Müharibəsində ağır yaralanan daha 6 qazimiz "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib.**

Məlumatda bildirilir ki, qazilərimiz Zöhrablı Təbriz Atamoğlan oğlu, Əliyev Heydər Zakir oğlu, Rəhimov Rəşad Surxay oğlu, Musayev Vadim Fikrətoviç, Salayev Namiq Həsən oğlu və Mabudlu Şaban Baloğlan oğlu artıq Türkiyəyə yola salınıb.


№ 214 (5496), 2021-ci il

# ŞƏRQ

Günəş Şərqdən doğur!

Qiyməti 40 qəpik

www.sherg.az 24 noyabr 2021-ci il (çərşənbə)




# Yarımçıq qalmış tikililərin monitorinqi aparılacaq

Dövlət investisiya proqramlarının tərtibi yenidən işlənəcək

**Bununla əlaqədar İqtisadiyyat Nazirliyində geniş tərkibdə işçi qrupu yaradılıb. Yarımçıq qalmış tikililərlə bağlı problemlər var və kifayət qədər keçid layihələri mövcuddur.**

Bunu Milli Məclisin dünən keçirilən iclasında iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova deyib.

Nazir müavini bildirib ki, dövlət büdcəsindən investisiya layihələrinə ayrılan vəsaitlər hər il azalmaqla təsdiq edilir: "Bununla əlaqədar İqtisadiyyat Nazirliyində geniş tərkibdə işçi qrupu yaradılıb. Dövlət investisiya proqramlarının tərtibi yenidən işlənəcək. Bu qrup tərəfindən bütün yarımçıq qalmış tikililərin monitorinqi aparılacaq və müvafiq təkliflər hazırlanacaq. Bu tikililərin sadəcə dövlət büdcəsi hesabına maliyyələşdirilməsi nəzərdə tutulmur. Özəlləşdirmə və s. kimi təkliflər də nəzərdə tutulur".

O həmçinin bildirib ki, cari məzənnə və makroiqtisadi sabitliyin qorunması üçün tədbirlər həm monetar, həm də iqtisadi siyasət çərçivəsində görüləcək. Artım nəticəsində adambaşına düşən ümumdaxili məhsulumuz 10 min manatı keçəcək.

(səh.2)

# Kərim Vəliyevə "general-polkovnik..."

Ənvər Əfəndiyevə isə "general-leytenant" ali hərbi rütbəsi verilib





**Prezident İlham Əliyev K.T.Vəliyevə "general-polkovnik" ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, General-leytenant Kərim Tofiq oğlu Vəliyevə "general-polkovnik" ali hərbi rütbəsi verilib.

Prezident İlham Əliyev Ə.Z.Əfəndiyevə "general-leytenant" ali hərbi rütbəsinin verilməsi haqqında da Sərəncam imzalayıb.

Prezidentin digər Sərəncamı ilə General-mayor Ənvər Zəkəriyyə oğlu Əfəndiyevə "general-leytenant" ali hərbi rütbəsi verilib.

# Kreml tarix açıqladı

Rusiya, Azərbaycan və Ermənistan liderləri noyabrın 26-da Soçidə bir araya gələcəklər



*"Soçi görüşündə sülh müqaviləsinin imzalanmasını söyləmək çətindir, çünki hələ sərhədlərin delimitasiya və demarkasiya prosesi getməyib"*

**Bu günlərdə əsas müzakirə mövzusu Azərbaycan prezidenti ilə Ermənistan baş nazirinin Brüssel görüşüdür.**

Dekabrın 15-də Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığının Zirvə görüşü çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında danışıqlar gözlənilir. Azərbaycan Xarici İşlər Nazirliyinin verdiyi məlumata görə, görüş Avropa Birliyi Şurasının Prezidenti Şarl Mişelin təklifi ilə baş tutacaq. Oktyabrın sonlarında isə Kremlin mətbuat xidmətinin rəhbəri Dmitri Peskov noyabrın əvvəlində Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin iştirakı ilə üçtərəfli görüşün keçiriləcəyi ilə bağlı açıqlama vermişdi. Lakin sonra gözlənilən danışıqlar Kəlbəcər, Laçın təxribatları, Şuşa terroru və noyabr döyüşləri ilə sabotaj olundu.

(səh.3)

# Paşinyan təşəbbüsü şəxsən dəstəkləyib

Yerevan və Bakı arasında müdafiə nazirləri səviyyəsində birbaşa əlaqə qurulub

**Ermənistan və Azərbaycan arasında müdafiə nazirləri səviyyəsində birbaşa operativ əlaqə qurulub. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan Facebook vasitəsilə birbaşa efir zamanı KİV-lərin suallarını cavablandırarkən deyib.**

"Avropa Birliyi sədri ilə telefon danışıqları zamanı daha bir təşəbbüs ortaya çıxıb. Söhbət müdafiə nazirləri arasında birbaşa əlaqədən gedir. Məqsəd insidentlərin qarşısının alınmasıdır", - deyə Paşinyan bildirib.

Paşinyanın sözlərinə görə, o şəxsən bu təşəbbüsü dəstəkləyib və bunun bölgədə sabitliyin bərqərar olmasına kömək edəcəyinə ümidvar olduğunu vurğulayıb.

"Deyə bilərəm ki, bu cür əlaqə artıq qurulub. Mən bunu qiymətləndirirəm. Bu, çox vacibdir", - deyə Paşinyan bildirib.

**Daha sonra Paşinyan əvvəllər Ermənistan və Azərbaycan müdafiə nazirləri arasında bu cür əlaqənin olmadığını söyləyib:**

"Bu ilk dəfədir. Əlaqə qurulub və mən Azərbaycan Prezidentinin bu qərarını qiymətləndirirəm. Bu operativ əlaqənin nə dərəcədə effektiv olmasını zaman göstərəcək", deyə Ermənistan baş naziri bildirib.



# Türkiyə Ermənistana iki şərt qoyub

"Birinci növbədə Türkiyənin və Azərbaycanın ərazi bütövlüyünü tanımağı tələb edib"

**Ermənistan hökuməti Türkiyə ilə münasibətlərin normallaşdırılmasında Moskvadan vasitəçilik etməsini xahiş edib.** Bu barədə Ermənistan XİN-in mətbuat katibi Vaan Unanyan deyib. Onun sözlərinə görə, Rusiya da daxil olmaqla, bir neçə ölkə Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşdırılması prosesində vasitəçiliyini təklif edib, İrəvan bu məqsədlə Moskvanı seçib...

(səh.3)

# Qaçılmazdır...

Rusiya-Ukrayna münasibətləri müharibəyə doğru gedir




**"Ukraynanın sərhədləri yaxınlığında Rusiyanın hərəkətliliyi ilə əlaqədar NATO ölkələri fəal addımlar atmağa hazır olduqları barədə Ukrayna hökumətini əmin ediblər".**

**Bu barədə Ukraynanın Müdafiə naziri Aleksey Reznikov "ICTV" telekanalına bildirib. "Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinin və ərazi bütövlüyünün qeyd-şərtsiz dəstəklənəcəyinə əmin oldum.**

(səh.3)

# Xalqın sosial rifahı yaxşılaşdırılmalıdır

Millət vəkili söyləyib ki, deyilənlərə hökumət üzvləri ciddi yanaşmalıdır



**"Pensiyalar kəsilir, kommunal xərclər maaşları üstələyir, bu məsələlərə baxılmalıdır".**

Bu sözləri Milli Məclisin dünənki iclasında millət vəkili Sabir Rüstəmxanlı deyib. Deputat bildirib ki, müharibədən sonra yeni Azərbaycanda yaşamaq istəyirik: "Büdcə də bunu özündə əks etdirməlidir. Bizim üçün prioritet işğaldan azad olunmuş yerlərin bərpası məsələsidir. Xalq bunu başa düşür.

(səh.2)

# Qızdırmanı salmayacaq

Antibiotiklər orqanizmə əlavə yükdür




**"Viruslara qarşı antibiotiklərin heç hansı təsiri yoxdur".**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib. O bildirib ki, bütün dünyada COVID-19-a yoluxan insanların 75 faizindən çoxu antibiotiklərdən istifadə edir:

"Bu, çox yanlışdır. Koronavirusa təsir etmədiyi kimi dərmanın bu şəkildə istifadəsi gələcəkdə bu antibiotiklərə qarşı davamlılığın itməsinə səbəb olur.

(səh.4)



# Nazirliklər və bəzi universitetlər rayonlara köçürülməlidir

**Fazil Mustafa:** "Bakını tıxacdan, gərginlikdən xilas etməliyik"

(səh.4)

# "Bahalaşma belimizi qırır"

**Tahir Kərimli:**

"Qurumlar qiymət artımları ilə bağlı xalqa izahat versin"



(səh.4)

# Prezident ölkəmizə yeni təyin olunmuş səfirlərin etimadnamələrini qəbul edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Çili Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rodriqo Arkosun etimadnaməsini qəbul edib.**

Səfir Rodriqo Arkos etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Çilinin beynəlxalq təşkilatlar çərçivəsində və ikitərəfli formatda əməkdaşlıq etdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət, iqtisadiyyat sahələrində əlaqələrin qurulmasının önəmini vurğulayaraq biznes dairələri arasında əməkdaşlığın yaradılmasının vacibliyini bildirdi, bu baxımdan ölkələrimiz barədə məlumatların insanlara çatdırılmasının önəmini qeyd etdi.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyinin 2023-cü ilə qədər uzadılması ilə bağlı Çilinin göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi, Azərbaycanın bundan sonra da sədr kimi Qoşulmama Hərəkatına üzv dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir Rodriqo Arkos ölkəsinin Azərbaycanla münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi. Eyni zamanda, Azərbaycanın Qoşulmama Hərəkatına və Türk Dövlətləri Təşkilatına uğurlu sədrliyi ilə bağlı təbriklərini çatdırdı. Səfir Rodriqo Arkos Azərbaycanla Sakit Okean Alyansında müşahidəçi statusunda münasibətlərə xüsusi əhəmiyyət verdiklərini bildirdi, post-COVID dövründə ölkələrimiz arasında daha sıx əlaqələrin qurulacağına əminliyini ifadə etdi.

Prezident İlham Əliyev dünən həmçinin Banqladeş, Filippin və Kambocanın ölkəmizdə yeni təyin olunmuş səfirlərinin etimadnamələrini də qəbul edib.

## Fərhad Xəlilov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib



**Prezident İlham Əliyev F.Q.Xəlilovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan təsviri sənətinin inkişafında və təbliğində uzunmüddətli səmərəli fəaliyyətinə görə Fərhad Qurban oğlu Xəlilov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

## Parlamentdə 2022-ci ilin dövlət büdcəsi ikinci oxunuşda qəbul edilib



**Milli Məclisin dünən keçirilən iclasında 2022-ci ilin dövlət büdcəsi müzakirə edilib.**

İclasın gündəliyinə daxil edilən "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirələrdən sonra ikinci oxunuşda qəbul edilib.



## Prezident İlham Əliyev hərbi xidmətə çağırışla bağlı sərəncam imzalayıb

**Prezident İlham Əliyev Azərbaycan vətəndaşlarının 2022-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən 2004-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2022-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2022-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.



## Şoyqu Çinin müdafiə nazirini məlumatlandırıb

"ABŞ-ın strateji bombardmançı aviasiyası Rusiya sərhədi yaxınlığında aktivləşib"

**ABŞ Hərbi Hava Qüvvələrinin strateji bombardmançı aviasiyası Rusiyanın şərqində, dövlət sərhədinin bilavasitə yaxınlığında əhəmiyyətli dərəcədə fəallaşıb, pilotlar raket zərbələri endirmə taktikasını tətbiq edirlər.**

APA-nın Moskva müxbirinin məlumatına görə, bunu Rusiyanın müdafiə naziri ordu generalı Sergey Şoyqu Çinin müdafiə naziri Vey Fenqe ilə danışıqlar zamanı bildirib.

Onun sözlərinə görə, bu cür hərəkətlər Çin üçün də təhlükə yaradır.

"Hazırda biz bilavasitə Rusiyanın şərq sərhədləri yaxınlığında uçuşların sayında əhəmiyyətli artımı qeyd edirik. Təkcə 2020-ci ildə ABŞ Hərbi Hava Qüvvələrinin strateji aviasiyası Oxot dənizi üzərində 22 uçuş həyata keçirib, halbuki 2019-cu ildə bu uçuşların sayı 3 olub. Bütün hallarda bizim hava hücumundan müdafiəmiz Amerikanın strateji bombardmançılarının vaxtında aşkar edilməsi, davamlı monitorinqin qurulması və insidentlərin qarşısının alınması üçün tədbirlər həyata keçirir", - rusiyalı nazir vurğulayıb.

## AŞPA-nın Daimi Komitəsinin iclası keçiriləcək

**Noyabrın 25-də və 26-da İtaliyanın Roma şəhərində AŞPA-nın Daimi Komitəsinin iclası keçiriləcək.**

İclasda Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri və Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov iştirak edəcək. Bu barədə Milli Məclisdən məlumat verilib.

Daimi Komitənin iclasında Belarusla sərhəddə miqrantların vəziyyəti, miqrantların beynəlxalq müdafiəsi, uşaqların başlıca maraqlarının təmini, Mərakeşdə 2021-ci il sentyabrın 8-də keçirilən parlament seçkilərinin nəticələri, gender zorakılığı ilə mübarizədə kişilərin rolu və digər mövzularda fikir mübadiləsi aparılacaq.

## Nazarbayev partiya sədrliyindən gedir



**Qazaxıstanın birinci Prezidenti-elbası Nursultan Nazarbayev iqtidardakı "Nur Otan" partiyası sədrinin səlahiyyətlərinin Prezident Kasım-Jomart Tokayevə verilməsi barədə qərar qəbul edib.** APA-nın TASS-a istinadən verdiyi xəbərə görə, bu barədə Nursultan Nazarbayevin mətbuat katibi Aydos Ukibay bildirib.

"Partiyanın siyasi şurasının genişləndirilmiş iclasında Nursultan Nazarbayev "Nur Otan" partiyası sədrinin səlahiyyətlərini Kasım-Jomart Tokayevə ötürmək qərarına gəlib. Səlahiyyətlərin ötürülməsi proseduru partiyanın nizamnaməsinə uyğun şəkildə həyata keçiriləcək", - A. Ukibay vurğulayıb.

*Qeyd edək ki, Qazaxıstana 30 il rəhbərlik edən Nursultan Nazarbayev 2019-cu il martın 20-də prezident postundan istefa versə də, Təhlükəsizlik Şurasının rəhbəri və "Nur Otan" partiyasının sədri postlarında qalıb.*

# Xalqın sosial rifahı yaxşılaşdırılmalıdır

Millət vəkili söyləyib ki, deyilənlərə hökumət üzvləri ciddi yanaşmalıdır

**"Pensiyalar kəsilir, kommunal xərclər maaşları üstələyir, bu məsələlərə baxılmalıdır".**

**Bu sözləri Milli Məclisin dünənki iclasında millət vəkili Sabir Rüstəmxanlı deyib. Deputat bildirib ki, müharibədən sonra yeni Azərbaycanda yaşamaq istəyirik:** "Büdcə də bunu özündə əks etdirməlidir. Bizim üçün prioritet işğaldan azad olunmuş yerlərin bərpası məsələsidir. Xalq bunu başa düşür. Cəmiyyətdə olan bu sabitlik xalqın bunu başa düşməsinə görədir. Ancaq xalqın sosial rifahı da yaxşılaşdırılmalıdır. Biz cəmiyyətdəki ağrıları görürük və deyirik. Onun müalicəsi



hökumətin işidir. Xahiş edirəm, deyilənlərə hökumət üzvləri ciddi yanaşsınlar. Prezidentin ölkə boyu kərpic-kərpic qurduğu siyasət məmurların etinasızlığı ilə sökülməməlidir. Kəndlərdə məktəblərə, rayonlarda kinoya diqqət artırılmalıdır. Dövlətimizin ana dilinin inkişafı ilə bağlı qərar və qanunları ortada olsa da, Bakının mərkəzində ancaq xarici dillərdə reklamlar yerləşdirilir. Nəyə görə buna diqqət ayırmırıq?".

**İsmayıl**

# "Qiymət artımının səbəbi idxal məhsullarıdır"



Nazir müavini: "Eyni zamanda daşınma xərcləri və enerji xərclərinin artımı da qiymət artımına təsir edən amillərdir"

**"Bazarda rəqabət prinsiplərinin qorunması vacib məsələlərdəndir".**

APA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən iclasında "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" (ikinci oxunuş) qanun layihəsinin müzakirəsi zamanı iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova deyib.

Nazir müavini bildirib ki, bir sıra malların qiymətləri dövlət tərəfindən tənzimlənir: "Dövlət büdcəsinin imkanları nəzərə alınmaqla bu qiymətlərin daha məqbul saxlanmasına çalışılır. Dövlət tərəfindən tənzimlənməyən malların qiymətlərinin süni artmasının qarşısını almaq məqsədilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak bazarına Nəzarət Dövlət Xidməti tərəfindən bazarda mütəmadi monitorinqlər aparılır. Əhali üçün ən çox zəruri olan 86 adda ərzaq məhsulları, 51 adda tikinti materiallarının qiymətləri ilə bağlı monitorinqlər və təhlillər aparılır. İstehlak bazarımızda aparılan təhlillər və müşahidələr də göstərir ki, qiymət artımının səbəbi idxal məhsullarıdır. İstehsalda idxal xammalına əsaslanan mallarda qiymət artımı müşahidə edilir. Eyni zamanda daşınma xərcləri və enerji xərclərinin artımı da qiymət artımına təsir edən amillərdir".

# Yarımçıq qalmış tikililərin monitorinqi aparılacaq




## Dövlət investisiya proqramlarının tərtibi yenidən işlənəcək

**Bununla əlaqədar İqtisadiyyat Nazirliyində geniş tərkibdə işçi qrupu yaradılıb.**

Yarımçıq qalmış tikililərlə bağlı problemlər var və kifayət qədər keçid layihələri mövcuddur.

Bunu Milli Məclisin dünən keçirilən iclasında iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova deyib.

Nazir müavini bildirib ki, dövlət büdcəsindən investisiya layihələrinə ayrılan vəsaitlər hər il azalmaqla təsdiq edilir: "Bununla əlaqədar İqtisadiyyat Nazirliyində geniş tərkibdə işçi qrupu yaradılıb. Dövlət investisiya proqramlarının tərtibi yenidən işlənəcək. Bu qrup tərəfindən bütün yarımçıq qalmış tikililərin monitorinqi aparılacaq və müvafiq təkliflər hazırlanacaq. Bu tikililərin sadəcə dövlət büdcəsi hesabına maliyyələşdirilməsi nəzərdə tutulmur. Özəlləşdirmə və s. kimi təkliflər də nəzərdə tutulur".

O həmçinin bildirib ki, cari məzənnə və makroiqtisadi sabitliyin qorunması üçün tədbirlər həm monetar, həm də iqtisadi siyasət çərçivəsində görüləcək. Artım nəticəsində adambaşına düşən ümumdaxili məhsulumuz 10 min manatı keçəcək.

Nazir müavini bildirib ki, Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozlara görə, 2022-2026-ci ildə dünyada iqtisadi orta illik artım tempinin 3,7 faiz, inkişaf etməkdə olan ölkələrdə isə 4,6 faiz olması proqnozlaşdırılır. "Bizim strategiyamızın icrası nəticəsində qeyri-neft sektorunun (5 faizdən çox) və ÜDM-in (4 faiz ətrafında) artımı BVF-nin proqnozlarından yüksəkdir. Təkanverici sahələrimiz qeyri-neft sənayesi olacaq. Burada 8 faizdən çox artım proqnozlaşdırılır.

# İrəvan məhkumdur...

## Ermənistan sonuncu dayanacaq - sülhə yaxınlaşır

**Son bir il ərzində Azərbaycana qarşı bütün hərbi təxribatları boşa çıxan Ermənistanın diplomatik-siyasi müstəvidə iflası qaçılmazdır. Bu ölkənin hansı variantlara əl atmasından asılı olmayaraq, son çarəsi Azərbaycanın şərtlərini qəbul etmək, yeganə çıxış yolu böyük sülh sazişinin imzalanması istiqamətində real addımlar atmaqdır.**



Əvvəl-axır rəsmi İrəvanın bütün manevrləri, hiyləgər taktiki gedişləri iflasa məhkumdur. Əslində Nikol Paşinyanın özü də bu həqiqəti yaxşı dərk edir. O, Ermənistanın masaya oturmaqdan, Azərbaycanla ortaq məxrəcə gəlməkdən, sülh müqaviləsi bağlayıb əməkdaşlığa başlamaqdan başqa çarəsinin olmadığını hamıdan yaxşı bilir. Bu mənada dekabrın ortalarında Avropa Birliyinin paytaxtında Paşinyanın Azərbaycan dövlət başçısı İlham Əliyevlə görüşünün keçiriləcəyi barədə yayılan xəbərləri Ermənistan üçün bir fürsət, şans kimi dəyərləndirmək lazımdır.

Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, Paşinyan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə dekabrın 15-də Brüsseldə keçiriləcək görüşü "kart-blanş" kimi gözdən keçirməli və fürsəti düzgün dəyərləndirməlidir. Partiya rəhbərinin sözlərinə görə, Paşinyan nəhayət özünü adekvat və ciddi siyasətçi kimi aparmağı bacarmalıdır: "Bütün görüşlərin Azərbaycan tərəfinin mənəvi-psixoloji üstünlüyü şəraitində keçəcəyi şübhəsizdir. Böyük ehtimal görüş zamanı liderlər sərhədlərin delimitasiyası və demarkasiyasını, Zəngəzur dəhlizinin açılmasını, eləcə də 10 noyabr üçtərəfli Bəyanatından irəli gələn digər vacib məsələləri ilk sırada müzakirə edəcəklər. 16 noyabrda Ermənistanın növbəti təxribatı Paşinyanın Avropa Birliyini, ATƏT-i, NATO alyansını proseslərə cəlb etmək planlarının üstündən xətt çəkdi və rəsmi Bakının əlini bir qədər də gücləndirdi. Odur ki, Azərbaycan liderinin bu görüşdə "hücum diplomatiyası"ndan çıxış etmək imkanları daha da genişlənib".

Ə.Hüseynov vurğulayıb ki, görüşlərin keçirilməsi qalıcı sülh üçün əlverişli zəmin yaradır. Bu görüşlər məğlubiyyəti ilə heç cürə barışa bilməyən Ermənistanı sonuncu dayanacağa - sülhə yaxınlaşdırır. Burada Ermənistanın iradəsi, onun sülhü istəyib-istəməməsi heç bir rol oynamır. Çünki Ermənistan bütün hallarda sülhə razılıq verməyə məhkumdur. Biz indi Ermənistanın manevr imkanlarının tükəndiyini müşahidə etməkdəyik. 16 noyabr döyüşləri Ermənistanın nəinki sonuncu müqavimətini, belini də qırdı. Ermənistanın rəhbərliyi də, erməni cəmiyyəti də tam mənada başa düşdü ki, onlar hərbi üstünlüklərini həmişəlik itiriblər".

**İsmayıl Qocayev**

# Kreml tarix açıqladı

## Rusiya, Azərbaycan və Ermənistan liderləri noyabrın 26-da Soçidə bir araya gələcəklər



*“Soçi görüşündə sülh müqaviləsinin imzalanmasını söyləmək çətindir, çünki hələ sərhədlərin delimitasiya və demarkasiya prosesi getməyib”*

**Bu günlərdə əsas müzakirə mövzusu Azərbaycan prezidenti ilə Ermənistan baş nazirinin Brüssel görüşüdür. Dekabrın 15-də Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığının Zirvə görüşü çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında danışıqlar gözlənilir.**

Azərbaycan Xarici İşlər Nazirliyinin verdiyi məlumata görə, görüş Avropa Birliyi Şurasının Prezidenti Şarl Mişelin təklifi ilə baş tutacaq. Oktyabrın sonlarında isə Kremlin mətbuat xidmətinin rəhbəri Dmitri Peskov noyabrın əvvəlində Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin iştirakı ilə üçtərəfli görüşün keçiriləcəyi ilə bağlı açıqlama vermişdi. Lakin sonra gözlənilən danışıqlar Kəlbəcər, Laçın təxribatları, Şuşa terroru və noyabr döyüşləri ilə sabotaj olundu.

Ermənistan və Azərbaycan rəhbərlərinin Brüsseldə görüşünün gözləndiyi bir vaxtda Kremlin mətbuat katibi xəbər yayıb. Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyanın noyabrın 26-da Soçidə görüşəcəyi bildirilib.

Qeyd edilir ki, Putin Əliyev və Paşinyanla ayrı-ayrılıqda danışıqlar aparacaq.

Məlumata görə, Qarabağda sabitliyin möhkəmləndirilməsi və dinc həyatın bərqərar olması üçün atılacaq addımlar müəyyən ediləcək.

Postmünaqişə dövrünün reallıqları müstəvisində Azərbaycanın mövqeyi Prezident İlham Əliyev tərəfindən dəfələrlə beynəlxalq platformalarda səsləndirilib. Görüş zamanı gündəlikdə nələrin müzakirə olunacağı barəsində artıq yerli və xarici ekspertlər müxtəlif versiyalar irəli sürürlər. Bu mənada sözügedən görüşün nəticələri hər kəsə maraqlıdır.

**Görüşdən gözləntiləri analitik Aqşin Kərimov ”Şərq”ə şərh edib. Onun sözlərinə görə, İlham Əliyevlə Nikol Paşinyan arasında görüşün keçirilməsi məsələsi beynəlxalq münasibətlər sistemində əks qütblərdə dayanan tərəflər arasında rəqabət predmetinə daxil idi:** ”Bundan əvvəl Rusiya tərəfindən gələn açıqlamalar Moskvanın təşəbbüsü ilə görüşün keçiriləcəyinə işarə edirdi. Azərbaycan-Ermənistan sərhədindəki son toqquşmalardan sonra isə Əliyev-Paşinyan görüşü daha da aktuallıq qazandı.

ABŞ-Avropa İttifaqı tandemi ilə Rusiyanın rəqabəti mina xəritələrinin Azərbaycana verilməsi məsələsində də özünü büruzə vermişdi. Ağdamın mina xəritələri Qərbin təşəbbüsü ilə geri qaytarıldı. Rusiya buna cavab kimi Zəngilan və Füzulinin mina xəritələrinin Azərbaycana verilməsinə nail oldu”.

**Siyasi şərhçi açıqlamasında digər rəqabətin sərhəd məsələsi olduğunu vurğulayıb:** ”Fikir verin, Rusiya sərhədlərin delimitasiyasını SSRİ xəritələrinə əsasən həyata keçirilməsinin vacibliyini dilə gətirdiyi halda, Qərb də prosesdə önə çıxmaq istəyərək Rusiyanı neytrallaşdırmağa cəhd edir.

Rusiya heç bir şəkildə Qərbin regionda nüfuzunun və təsirinin artmasını həzm edə bilmir. Ona görə də Kreml Əliyev-Paşinyan görüşünün Brüsseldən öncə Soçidə keçirilməsinə nail oldu.

Rusiya istəyir ki, Azərbaycan və Ermənistan ”saat əqrəblərini” Moskva ilə tutuşdurduqdan sonra Brüsselə yollansınlar.

Ola bilər, Rusiya Brüsseldə bəyanat formasında hansısa sənədin imzalanmasından ehtiyat edib. Moskva marşrutu seçilmədən həmin bəyanatın imzalanması Rusiyanın təşəbbüsü ilə imzalanmış 10 noyabr və 11 yanvar bəyanatlarının mətnini kölgə altında qoya bilərdi.

*Rusiya Prezidenti Vladimir Putin hesablayır ki, Brüsseldən öncə Soçi görüşünün keçirilməsi, bəyanat imzalanmasa belə Qərbin ön plana çıxması təsəvvürlərinin üstündən xətt çəkəcək”.*

A.Kərimov diqqətə çatdırıb ki, Soçi görüşündə hansısa sənədin imzalanması istisna deyil, amma bu, sülh müqaviləsi olmayacaq: ”Soçi görüşündə sülh müqaviləsinin imzalanmasını söyləmək çətindir, çünki hələ sərhədlərin delimitasiya və demarkasiya prosesi getməyib.

Digər tərəfdən, Əliyev-Paşinyan görüşünün Brüsseldə keçiriləcəyinin elanından sonra Putin Paşinyanla telefon söhbəti etdi, bu, Ermənistana təzyiq alətinin işə salınması idi.

Ermənistan mətbuatında da Kremldən təhdid ritorikası səslənməsinə dair versiyalar dolaşır. Ancaq maraqlısı budur ki, sərhəddəki insidentdən sonra Putin-Əliyev telefon danışığı olmayıb. Deməli, Rusiya Azərbaycana təzyiq etmək istəsə də, Türkiyə amilini nəzərə alır və təzyiqlərini neytral formada hansısa şəkildə çatdırır”.

**Aygün Tahir**

---

**İsmayıl Qocayev**

**Ermənistan hökuməti Türkiyə ilə münasibətlərin normallaşdırılmasında Moskvadan vasitəçilik etməsini xahiş edib. Bu barədə Ermənistan XİN-in mətbuat katibi Vaan Unanyan deyib. Onun sözlərinə görə, Rusiya da daxil olmaqla, bir neçə ölkə Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşdırılması prosesində vasitəçiliyini təklif edib,**



# Türkiyə Ermənistana iki şərt qoyub

## “Birinci növbədə Türkiyənin və Azərbaycanın ərazi bütövlüyünü tanımağı tələb edib”

**İrəvan bu məqsədlə Moskvanı seçib:**

”Rusiyaya bildirmişik ki, heç bir ön şərtlər olmadan Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılmasına hazırıq. Əgər nə vaxtsa bu barədə danışıqlar olsa, məlumat verəcəyik”. Xatırladaq ki, bu ilin avqust ayından etibarən Ermənistanın baş naziri və Türkiyə prezidenti qarşılıqlı müsbət siqnallar aldıqlarına dair bəyanatlar veriblər. Hətta Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan bildirib ki, Paşinyan ona Gürcüstanın baş naziri vasitəsilə görüşmək istədiyini çatdırıb. Lakin Ərdoğan vurğulayıb ki, belə bir görüşün baş tutması üçün İrəvan Zəngəzur dəhlizinin açılması istiqamətində addımlar atmalıdır. Unanyan bəyan edib ki, Ankara və İrəvan arasında birbaşa danışıqlar olmayıb. Ermənistanın Türkiyə ilə münasibətlər qurmasında ABŞ da öz vasitəçiliyini təklif edib. Məlumat üçün bildirək ki, Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan da ”Le Figaro” nəşrinə müsahibəsində Türkiyə ilə münasibətlərin normallaşdırılması məsələsi ilə bağlı detalları açıqlayıb. Erməni nazir Türkiyənin şərtlər irəli sürdüyünü deyib: ”Türkiyədən dialoqun bərpası üçün müsbət siqnallar almışıq, lakin bu, çətin olaraq qalır. Ankaranın bir neçə şərti var. Türkiyə dəhlizin açılmasını istəyir. Regionda bütün kommunikasiyalar açıq olmalıdır. Ankaranın bizimlə şərtlə danışması dialoqumuzun alınmasına çətinlik törədir”.

**Elxan Şahinoğlu:**
“Ankara Bakı ilə birgə İrəvana mesaj yollayır ki, torpaq iddialarından vaz keç və dəhlizin açılmasını təmin et”

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, İrəvanın Azərbaycanla məsələləri həll etmədən Türkiyə ilə münasibətləri normallaşdırmaq məqsədilə Moskvaya müraciətinin arxasında hiyləgər gediş var.** Politoloqun fikrincə, İrəvanın növbəti açıqlamasında da Türkiyə ilə münasibətlərin qeyd-şərtsiz normallaşdırılması tələbi dayanıb: ”Ankara Ermənistandan birinci növbədə Türkiyənin və Azərbaycanın ərazi bütövlüyünü tanımağı tələb edib. Bundan başqa Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun bəlli açıqlaması var ki, Türkiyə Ermənistanla münasibətlərin normallaşması məsələsində Bakı ilə koordinasiyalı şəkildə çalışacaq. Bu, Türkiyə-Azərbaycan strateji müttəfiqliyinin ruhuna uyğundur. Yəni Ankara Bakı ilə birgə İrəvana mesaj yollayır ki, torpaq iddialarından vaz keç və dəhlizin açılmasını təmin et. Bunun qarşılığında əlaqələr quraq, əməkdaşlığa başlayaq, bölgədə yeni platforma yaradaq. İrəvan isə bunun əksinə ”biz Türkiyə ilə münasibətləri normallaşdırmağa hazırıq, Ankara isə yenə şərt qoşur” mesajını Moskvaya ünvanlamaqla məhz Türkiyənin oyun pozucu olduğunu göstərməyə çalışır. Paşinyan ümid edir ki, Moskva da İrəvan kimi Ankaraya məsləhət görəcək ki, ilkin şərt irəli sürmədən Ermənistan hakimiyyəti ilə danışıqlara başlasın. Paşinyan bununla Moskva-Bakı münasibətlərində də çat yaradacağına inanır”.

---



# Qaçılmazdır...

## Rusiya-Ukrayna münasibətləri müharibəyə doğru gedir

**Aynurə Pənahqızı**



“Manipol və yaxındakı digər dəniz şəhərlərinin ələ keçirilməsi Rusiyanın planıdır”

**”Ukraynanın sərhədləri yaxınlığında Rusiyanın hərəkətliliyi ilə əlaqədar NATO ölkələri fəal addımlar atmağa hazır olduqları barədə Ukrayna hökumətini əmin ediblər”.**

Bu barədə Ukraynanın Müdafiə naziri Aleksey Reznikov ”ICTV” telekanalına bildirib. ”Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinin və ərazi bütövlüyünün qeyd-şərtsiz dəstəklənəcəyinə əmin oldum. Ona da əmin oldum ki, alyans ölkələri ilə Aİ arasında qətiyyətli addımlar atmağa hazır olmaqla bağlı çox ciddi məsləhətləşmələr gedir. Bura həm siyasi və iqtisadi addımlar, həm də Ukraynaya müəyyən yardım daxildir” - deyə ukraynalı nazir bildirib. Reznikovun sözlərinə görə, o, ABŞ-da səfərdə olarkən ABŞ-ın müdafiə naziri ilə yanaşı, həm də Dövlət Departamentinin nümayəndələri, senatorlar və konqresmenlərlə görüşüb. ”Eyni ifadə hər yerdə eşidilir: Rusiya tərəfindən Ukrayna ərazisinə birbaşa müdaxilə və təcavüz sözün bütün mənalarında onlara baha başa gələcək, biz bununla bağlı çox ciddi xəbərdarlıq edirik”, - nazir vurğulayıb.

Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya heç bir ölkəyə hücum etmək niyyətində deyil: ”Biz artıq dəfələrlə müxtəlif səviyyələrdə bəyan etmişik ki, Rusiya heç kimə hücum etmək niyyətində deyil və heç bir aqressiv planı yoxdur. Bunun əksini söyləmək isə tamamilə yanlışdır. Rusiya Silahlı Qüvvələrinin ölkə ərazisində hər hansı yerdəyişməsini bu cür planlarla əlaqələndirmək tamamilə yanlışdır. Bu, belə deyil”.

Kremlin sözçüsü qeyd edib ki, Amerika və Ukrayna mediası Rusiyanın Ukraynaya qarşı təcavüzə hazırlaşdığını, Rusiya tərəfi isə Ukraynanın Donbasa, tanınmamış Luqansk və Donetsk Xalq Respublikalarına qarşı aqressiv fəaliyyət planlaşdırdığını iddia edir.

**Rusiya və Ukrayna arasında gərginliyə münasibət bildirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli ”Şərq”ə açıqlamasında bildirib ki, Rusiya-Ukrayna münasibətləri müharibəyə doğru gedir. Ekspert qeyd edib ki, bu, qaçılmazdır:** ”Hesab edirəm ki, indiki hədəf Rusiyanın Malikov vilayətini ələ keçirməkdir, çünki artıq Krım yarımadasını ələ keçirib və orada külli miqdarda silahlı birləşmələr yığır. Bilirsiniz ki, Krım yarımadası Qara dənizin şərq hissəsinin təhlükəsizliyi nöqteyi-nəzərindən vacib nöqtəsidir. Bu baxımdan da artıq bu yarımadının təkcə dənizdən deyil, quru istiqamətində də təchiz olunması lazımdır. Ona görə də Manipol və yaxındakı digər dəniz şəhərlərinin ələ keçirilməsi Rusiyanın planıdır”.

**Ə.Əlibəyli vurğulayıb ki, Donbas müharibəsi getdikcə gərginləşəcək və genişlənəcək:** ”İki ölkə arasındakı toqquşmalar son Ukraynanın ABŞ və digər Avropa ölkələri tərəfindən kəskin şəkildə silahlandırılmasını görsək də, düşünürəm ki, hazırda onun strateji müttəfiqi heç də o ölkələr deyil. Tamamən Türkiyədir. Türkiyənin vasitəçiliyi son anda yaydakı proseslərin təkrarlanmamasına imkan yarada bilər. Amma görünür ki, Rusiya təkcə Qara dənizin bütövlükdə şərq hissəsini və Qara dənizin şərq sahillərində Ukrayna hissəsində ələ keçirməklə bağlı niyyətli deyil, eksponsiyanı daha da genişləndirməyi düşünür. Bunu digər NATO ölkələrinə doğru edir, yəni Moldova ilə Dnestryanı ölkədən bura nəzarət edir, hətta ola bilsin ki, onun işğalını reallaşdırsın. Arxasınca, Ruminiya və Bolqarıstanın cəzalandırılması gözlənilir, yəni əgər NATO ilə toqquşmaya gedilərsə. Şübhəsiz ki, Belarus ilə Polşanın cəzalandırılması versiyaları da işə düşə bilər. Bir növ Rusiya artıq daxili problemlərindən xarici problemlərə doğru yönəlmək siyasətini keçib. Demək olar ki, məhz bu istiqamətdə siyasətini çoxvektorlu qurub”.

---

# Qərbin "Qarabağ masası"nda nə var?



**Asif Nərimanlı:**
“Fransadan fərqli olaraq Amerikanın daha loyal mövqeyini görürük”

## “Belə hal Rusiya üçün qəbuledilməzdir”

**Günəş Mərd**

**Bildiyimiz kimi Avropa İttifaqının vasitəçiliyi ilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri arasında Brüsseldə görüş keçiriləcək. ABŞ-nin Azərbaycandakı səfiri Li Litzenberqer bu xəbərə çox şad olduğunu söyləyib. O, ABŞ-ın Əliyev-Paşinyan görüşünü səbirsizliklə gözlədiyini diqqətə çatdırıb.**

*Maraqlıdır, illərdir dəyişməz və nəticəsiz Minsk qrupu həmsədrliyində təmsil olunan Amerika hazırkı mövqeyində nə qədər səmimidir?*

**Mövzu ilə bağlı ”Şərq”ə danışan siyasi şərhçi Asif Nərimanlı bildirib ki, ABŞ-ın regiondakı prosesdə iştirak etmək istəyi onun Azərbaycanın maraqlarını müdafiə etməsi anlamına gəlmir:**

”ABŞ münaqişə həll ediləndə ATƏT-in Minsk qrupunun həmsədri olmasına baxmayaraq prosesdən kənarda qaldı. Münaqişə Rusiya və Türkiyənin vasitəçiliyi ilə həll olundu. Rusiya ona görə vasitəçi oldu ki, bölgədə tək idarəetmə qura bilməyəcəyini anladı. Bu zaman Amerikadansa, Türkiyə ilə razılaşmağı daha sərfəli hesab etdi”.

Siyasi şərhçi hazırkı durumda ABŞ-ın belə açıqlamalarının sırf Rusiyanın vasitəçiliyinə qarşı yönəldiyini vurğulayıb. O, Qərbin bu cür istəklərinin Azərbaycan tərəfi üçün əhəmiyyətindən danışıb:

”Biz bundan masada istifadə edə bilərik. Rusiyaya deyə bilərik ki, ya bizim maraqlarımız çərçivəsində sənin də maraqlarını təmin edəcək formada məsələni həll edək, ya da Qərb bölgəyə gəlir. Belə hal Rusiya üçün qəbuledilməzdir. Bu kontekstdə Azərbaycan və Rusiyanın gündəliyinin eyni olduğunu düşünürəm. Çünki hər iki ölkə münaqişənin həll edildiyini qəbul edir. Minsk qrupunun postmünaqişə dövründə fəaliyyətini nəzərdə tutur. Bu bizə imkan verir ki, rəsmi Moskvanın bölgədəki maraqlarından istifadə etməklə öz istəklərimizə nail olaq”.

*A.Nərimanlı bundan sonra da ABŞ-ın müxtəlif təkliflər irəli sürə biləcəyini diqqətə çatdırıb:* ”Maraqlıdır, hazırda təkliflərdə bulunan Amerika münaqişənin həll olduğunu qəbul edirmi? Doğrudur, onun Fransadan fərqli olaraq daha loyal mövqe sərgilədiyini görürük. Amma o, digər tərəfdən Minsk qrupunun yenidən fəaliyyətə başlaması istiqamətində çıxış edir, xüsusən də ABŞ-ın Ermənistandakı səfiri məsələni gündəmə gətirir. Fikrimcə, bu, rəsmi Bakıya təzyiq göstərmək üçün atılan addımlardır. Məqsəd Azərbaycan tərəfi prosesdə onların iştirakını qəbul etməzsə, Minsk qrupunun belə nüansları gündəmə gətirə biləcəyini nəzərə çatdırmaqdır”.

**Siyasi şərhçi münaqişə dönəmində də, indi də rəsmi Bakının Qərbin çağırışlarına, təkliflərinə cavab verən ölkə olduğunu bildirib:** “İndi Azərbaycan tərəfi üçün münaqişə dövrü başa çatıb. O, postmünaqişə dövrü üçün təkliflərə açıqdır. Məsələdə əsas həlledici ölkələr Rusiya, Azərbaycan və Türkiyədir. Üç ölkənin bölgənin gələcəyi ilə bağlı gündəliyi eynidir. Müharibəni biz qazanmışıq. Gündəliyi də biz formalaşdırmışıq. Şübhəsiz ki, Qərbin təklifləri arasında bu gündəlikdən kənara çıxma halları olacaq”.



# Fransa bölgəyə sülhün gəlməsini əngəlləyir

## Bu ölkənin Azərbaycana münasibəti heç vaxt dəyişməyəcək

**Parlamentin dünənki iclasında çıxış edən deputatlar Qarabağdakı separatçı rejimin nümayəndələrinin Fransa senatında respublikaçılar fraksiyasının rəhbəri, Valans şəhərinin meri və digər rəsmilər səviyyəsində qəbul edilməsini sərt şəkildə qınayıblar.**

Millət vəkilləri bu addımı Cənubi Qafqazda yaranmış yeni reallıqları düzgün qiymətləndirə bilməməyin və ikili standartların təzahürü adlandırıblar. Qeyd olunub ki, Fransa qərəzli olduğunu və həmsədr kimi öhdəliklərini yerinə yetirə bilmədiyini açıq-aşkar ortaya qoyur.

**“Fransa parlamentinin hər iki palatası qərəzli qətnamələr qəbul edib”**

**Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov bildirib ki, yerli hökumət nümayəndələrinin xarici siyasət sahəsində atdıqları addımlar Fransa qanunvericiliyinə ziddir.** Onun sözlərinə görə, ATƏT-in Minsk qrupunun həmsədri olan Fransanın Vətən müharibəsi dövründə, müharibədən sonra və bu gün nümayiş etdirdiyi mövqe Azərbaycan cəmiyyətində və hökumətində haqlı suallara səbəb olub: ”Biz bu suallara indi də cavab ala bilməmişik. Fransa parlamentinin hər iki palatası qərəzli və beynəlxalq hüquqa zidd qətnamələr qəbul edib. Azərbaycan torpaqlarının işğal altında olduğu dövrdə Fransanın müxtəlif şəhər və bölgələri işğalda olan ərazilərlə 28 qeyri-qanuni ”sənədlər” imzalayıb. Səfirliyimizin fəaliyyəti nəticəsində bunlardan 11-i məhkəmə qərarları ilə ləğv edilib, 2-si barədə isə məhkəmədə iddia qaldırılıb”.

“Fransa bu addımları ilə Minsk qrupunu rədd etmək üçün əsas verir. Biz bunu qiymətləndirməliyik”

**“Fransa Minsk qrupundan kənarlaşdırılmalıdır”**

**Deputat Qüdrət Həsənquliyev deyib ki, Fransa Minsk qrupunun üzvü kimi açıq-aşkar Ermənistana, işğalçı dövlətə dəstək olur.** O bildirib ki, 44 günlük savaşda minlərlə gəncin tökülən qanlarına görə Fransa da məsuliyyət daşıyır: ”Fransa bu hərəkəti ilə bölgəyə sülhün gəlməsini əngəlləyir. Azərbaycan Fransanın Minsk qrupu həmsədrliyindən kənarlaşdırılmasına çalışmalıdır. Mən hər cür təhqirin və zorakılığın əleyhinəyəm. Sadəcə, baş verənlər Fransanın yürütdüyü siyasətin nəticəsidir. Ermənilərə müsbət münasibəti olan bu ölkənin Azərbaycana münasibəti heç vaxt dəyişməyəcək. Azərbaycan bütün sahələrdə Fransa ilə münasibətlərinə yenidən baxmalıdır”.

**“Donbasa olmaz, ancaq Qarabağ separatçısına olar?!”**

**Millət vəkili Fazil Mustafa qeyd edib ki, Azərbaycan əsgəri 44 günlük müharibədə yalnız Ermənistanı məğlub etmədi. Onun sözlərinə görə, bu siyahıda məğlub edilən ölkələrdən biri də Fransadır:** ”İndi bu məğlubiyyətin acısını çıxmaq üçün bu addım atılır. Azərbaycan nota verəndə Paris elan edir ki, bu, dövlətin rəsmi mövqeyi deyil, hansısa şəxslərin və qurumların fəaliyyətidir”. Deputat xatırladıb ki, bir müddət əvvəl Donbas separatçıları Parisdə nümayəndəlik açsa da, sonradan Qərb ölkələrinin reaksiyasından çəkinərək bunu qapadıb: ”Amma Qarabağla bağlı məsələni görməzdən gələrək başqa davranış sərgiləyir. Fransa bu addımı ilə Minsk qrupunu rədd etmək üçün əsas verir. Biz bunu qiymətləndirməliyik. Separatçılar xaricə gedəndə onlara cinayət işi açılmalı, terrorçu kimi axtarışa verilməlidirlər. İkincisi, Rusiyaya etiraz etməliyik. Sülhməramlılar Azərbaycan rəsmilərinin vəzifələrini mənimsəməyə çalışan separatçılarla bağlı real addımlar atmalıdır”.

**“Fransa Azərbaycana minnətdar olmalıdır ki...”**

**Deputat Tural Gəncəliyev də hesab edir ki, Fransanın istər Cənubi Qafqaz, istərsə də dünyanın digər ölkələrində xarici siyasətində ciddi səhvlər müşahidə olunur:**

”Bu, Fransada lider problemi ilə bağlıdır. Fransa Azərbaycana minnətdar olmalıdır ki, Azərbaycan öz gücünə BMT-nin qətnamələrinin icrasını təmin etdi. Azərbaycan bu gün postmüharibə, postkonflikt dövründə regiona heç bir dəxli olmayan, regiondan tamamilə kənarda yerləşən ölkənin hərəkətlərini qəbul etmir. Fransa bundan sonra Cənubi Qafqaz, xüsusilə Azərbaycanla bağlı siyasətlərində çox diqqətli olmalıdır. Əks halda onların batmaqda olan nüfuzu daha da batacaq”.

**“Məgər dünyada statussuz erməni yaşamır?”**

**Deputat Zahid Oruc isə deyib ki, Vətən müharibəsində Fransa xalqının simpatiyası bizim tərəfdə olsa da, hökumət, parlament və yerli hakimiyyət təmsilçiləri, eləcə də Prezident Makron Ermənistanla vahid səngərdə oldu:** ”Son 6 ayda Fransa rəsmiləri öz mövqelərində müəyyən dəyişikliklər etdi, ərazilərin minalardan təmizlənməsinə humanitar dəstəklə dövlətimizlə münasibətlərin bərpasına çalışdı. Lakin Lüksemburqu, Avropa Parlamentinin 33-dək üzvünü və dağıdıcı mühacirət qrupunu əleyhimizə təşkilatlandırdılar. Onları siyasi və informativ tezislərlə təchiz etdilər. İrəvana intensiv səfərlərlə məğlubiyyətdən sarsılan xalqı və hakimiyyəti ölkəmizə qarşı səfərbər etməyə çalışdılar. Ona görə də çoxunu bir sual düşündürür - həqiqətənmi fransız ordusu gəlib Rusiya və Türkiyə ilə çiyin-çiyinə Ağdamda sülhün keşiyini çəkmək istəyir? Məgər dünyada statussuz erməni yaşamır? Sualların cavabı hamıya aydındır. Xankəndidə yaşayan sadə erməniyə yox, Parisə gedən siyasi avantüristlərə, Aqanbekyanın davamçılarına, bir də Qərb dövlətlərinin özünə status lazımdır. Çünki bizim regionda ”hökmranlıq status”u qazanmaq Qafqazda sülhə ən böyük təhlükədir. Ona görə də Ermənistan və Azərbaycan arasında böyük sülh müqaviləsi imzalansaydı, biz əsl düşmənlərimizi görərdik!”.

**İsmayıl**

Deputatın səsi

# Nazirliklər və bəzi universitetlər rayonlara köçürülməlidir

Fazil Mustafa: “Bakını tıxacdan, gərginlikdən xilas etməliyik”



**Milli Məclisin dünən keçirilən iclasında çıxış edən millət vəkili, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa nazirlikləri və bəzi universitetləri rayonlara köçürməyi təklif edib:**

”Biz hamımız Böyük Qayıdışı gözləyirik, amma cəmiyyətdə bir sual dolanır ki, Gədəbəyə, Lerikə kiçik qayıdış nə vaxt olacaq? Bu gün regionlarda bəzi kəndlər boşalır. Amma biz Qarabağda bir kəndə 20-30 min məcburi köçkünün qaytarılmasından danışırıq. Rayonları birləşdirməli, idarəetməni sadələşdirməliyik. Bakını tıxacdan, gərginlikdən xilas etməliyik. Bir sıra nazirlikləri rayonlara köçürməliyik. Eyni zamanda bəzi universitetləri də Bakıdan çıxartmalıyıq. Digər tərəfdən, əhalini məhkəmənin elektron olması maraqlandırmır, əhalini maraqlandıran məhkəmənin ədalətli olmasıdır. Həmçinin, sahibkarı qorumaq lazımdır ki, o, investisiya yatıra bilsin. Yoxsa bizim istehlak bazarımız xaricdən asılı olaraq qalacaq”.

**F.Mustafa vurğulayıb ki, ”Azəristiliktəchizat” ASC-yə bu ilin büdcəsindən 40 milyon manat subsidiya ayrılması nəzərdə tutulub:** ”Siz yəqin ki, məktəblərdəki görüntüləri izləmisiniz. Məktəblərdə uşaqlar gödəkcədə oturur. Ötən illə müqayisədə bu quruma 15 milyon manat artıq maliyyə ayrılması ilə məsələ yoluna qoyulmur. Bu məsələlərin həllini quruma pul ayırmaqla çözmək mümkün deyil. Əsas problemin həll edilməsidir. ”Azəristiliktəchizat” ASC məktəb və bağçalara istilik verməlidir. Bəzilərinə verilməyib, verilənlərdə isə temperatur aşağıdır”.

**İsmayıl**

# "Mən həmişə vətəndaşın yanında olmuşam"



**Razi Nurullayev:** “Amma bir vətəndaşın ucbatından yüzlərlə insana ziyan dəydiyinə görə haqqı deməliyəm”

**Millət vəkili Razi Nurullayev parlamentin iclasında deyib ki, bizdə neftdən əlavə ən böyük drayver toy və tikintidir. Deputatın fikrincə, toy iqtisadiyyatımızın ana xətti olmasaydı, bu qədər şadlıq evləri tikilməzdi:** ”Xoşumuza gəlməsə də, gerçəkliyimiz budur. İkinci drayver isə tikintidir. Tikinti az qala bütöv Azərbaycanı işlə təmin etmək iqtidarındadır və biz bunun birinci tikinti bumunda şahidi olmuşuq. İndi isə tikintilər həddindən artıq zəifləyib. Burada birinci məsələ köçmək istəməyən bir və ya bir neçə vətəndaşa görə tikintilərin aylarla, bəzən illərlə gecikməsidir. Məsələn, hansısa vətəndaş ayağını yerə dirəyib köçmək istəmir. Evinin kvadratından dəfələrlə çox kvadrata malik yeni ev istəyir və ya evini, mənzilini dəfələrlə baha dəyərləndirir. Mən hər zaman vətəndaşların yanında olmuşam. Amma bir vətəndaşın ucbatından yüzlərlə insana ziyan dəydiyinə görə haqqı deməliyəm. İş adamları da, vətəndaşlar da bezirlər. Nəticədə iş yerləri bağlanır, digər sərmayəçilər qaçır”.

Deputat çıxış yolu üçün qanuna dəyişiklik təklif edib: ”Əgər sakinlərin 70 faizi köçürülmə və şərtlərlə razıdırsa, o zaman qalan 30 faizlə bağlı məsələ hüquqi müstəvidə 10 gün müddətində həllini tapmalıdır. Xahiş edirəm, bu məsələ araşdırılsın, dəyişiklikləri parlamentin komitələrində müzakirə edək və plenar iclasa çıxaraq”.

**İsmayıl**

# "Bahalaşma belimizi qırır"



**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. İclasın gündəliyinə 24 məsələ daxil edilib. 2022-ci ilin dövlət büdcəsi müzakirə edilərək ikinci oxunuşda qəbul olunub.**

**Tahir Kərimli:** “Qurumlar qiymət artımları ilə bağlı xalqa izahat versin”



İclas zamanı deputatlar cari məsələlərdən də danışıblar. Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli ötən iclasda parlamentin smeta xərcləri ilə bağlı açıqlamalarına aydınlıq gətirib və spikerdən üzr istəyib. Deputat bildirib ki, Milli Məclisin rəhbərliyinin beynəlxalq fəaliyyəti göz qabağındadır: ”Milli Məclisdə müvafiq sənədlərlə tanış olanda gördüm ki, mənə müəyyən qədər yanlış məlumat verilib. Sürücülərin maaşı kəsilməyib, onlar üçün dövlət hesabına kurs təşkil olunub ki, dərəcələrini artırsınlar və daha yüksək maaş alsınlar. Milli Məclisdə işləyən xeyli təcrübəli insan vəzifələrə irəli çəkilib. Məsələn, ekspertlər müşavir vəzifəsinə təyin olunub. Bir neçə yüz adama pandemiyaya görə 500 manat məbləğində birdəfəlik yardımlar edilib. Ötən çıxışımdan sonra məni deputatlar da, sosial şəbəkə fəalları də haqlı olaraq qınadı. Doğrudan da yanlışlığa yol vermişəm”. MM Sədri Sahibə Qafarova isə tövsiyə edib ki, sənədlərə əsaslanmayan, yanlış məlumatlar əsasında çıxışlar Milli Məclisdə səslənməsin, xalqa yanlış məlumat verilməsin.

**“Bahalaşma belimizi qırır, buna diqqət etmək çox vacibdir”**

**Millət vəkili Tahir Kərimli qiymət artımı ilə bağlı hökuməti xalqa izahat verməyə çağırıb:** ”Hökumət düşünür ki, biz ancaq onların işində nöqsan axtarırıq. Bu, belə deyil. Biz görülən müsbət işləri də görürük. Nöqsan axtaran özü elə nöqsanlıdır. Hökumət bilməlidir ki, biz deputatlar daha çox maraqlıyıq ki, rifah olsun, ölkəmiz inkişaf etsin. Ona görə xahiş edirəm ki, bəzi şeyləri süngü ilə qarşılamasınlar. Bir şeyi bilməliyik ki, balıq susuz yaşaya bilmədiyi kimi, dövlət də intizamsız yaşaya bilməz. Qurumlar qiymət artımları ilə bağlı xalqa izahat versin. Bahalaşma belimizi qırır, buna diqqət etmək çox vacibdir. İşsizlik məsələsi də qalmaqdadır. İqtisadiyyat Universitetində xüsusi istedadlı 30 tələbə universiteti bitirib, 30-u da ölkədə qalmayıb. Yeni iqtisadi siyasət formulunun yolu tapılmayıb”.

**“Bütün strukturlarda kütləvi ixtisarlar gedir, yüzlərlə insan ixtisara düşür”**

**Millət vəkili Məlahət İbrahimqızı dövlət strukturlarında kütləvi ixtisarlara yol verməməyə çağırıb.** Deputat bildirib ki, Prezident İlham Əliyevin və Mehriban Əliyevanın bilavasitə diqqəti sayəsində ölkədə yeni iş yerləri yaradılır: ”İşsizliyin aradan qaldırılması üçün addımlar atılır. Amma bütövlükdə bütün strukturlarda kütləvi ixtisarlar gedir, yüzlərlə insan ixtisara düşür. Biz başa düşürük ki, islahatlar getməlidir, amma ixtisarların kütləvi hal alması var, buna yol vermək olmaz. Biz qazilərimizin, şəhid və qazi ailələrinin işsizliyinin aradan qaldırılması ilə məşğul oluruq, indi bu problem də ortaya çıxıb”.

**“Məcburi köçkünlər içərisində çox zəngin insanlar var”**

**Deputat Qüdrət Həsənquliyev regionlara investisiya qoyan şirkətlərin 5 il bütün vergilərdən azad olunmasını təklif edib.** Millət vəkili bildirib ki, Azərbaycanda dövlət şirkətlərinin vergidən yayınmaq üçün xərcləri şişirtdiyini hamı bilir: ”Bunun qarşısı alınmalıdır. Belə olduğu təqdirdə büdcə vəsaitlərindən də kifayət qədər yaxşı istifadə ediləcək. Məcburi köçkünlər içərisində çox zəngin insanlar var. Onlara imkan yaradılmalıdır ki, işğaldan azad edilmiş yerlərdə öz evini tiksin. Qarabağın bərpasına bütün xalq cəlb edilməlidir”.

**İsmayıl Qocayev**

**”Viruslara qarşı antibiotiklərin hər hansı təsiri yoxdur”. Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib. O bildirib ki, bütün dünyada COVID-19-a yoluxan insanların 75 faizindən çoxu antibiotiklərdən istifadə edir:**




”Bu, çox yanlışdır. Koronavirusa təsir etmədiyi kimi dərmanın bu şəkildə istifadəsi gələcəkdə bu antibiotiklərə qarşı davamlılığın itməsinə səbəb olur. Buna görə həkim tərəfindən resept yazılmadan insanların özbaşına antibiotik qəbul etməsi doğru deyil”.

# Qızdırmanı salmayacaq

## Antibiotiklər orqanizmə əlavə yükdür



**Mərdan Əliyev:** “Lap başdan TƏBİB-in koronavirusun müalicəsində açıqladığı protokolda antibiotik dərmanlar olmayıb”

Ümumiyyətlə, istər koronavirus olsun, istərsə də bundan öncəki qripə yoluxmalar, soyuqdəymə halları zamanı bir çoxlarının evdə müalicəyə üstünlük verdiyi, tanış həkimlərlə əlaqə yaradıb müalicə üçün hansı dərmanlardan istifadəyə dair məsləhət aldıqları, ya da ”dədə-baba” qaydası ilə müalicə olunduğu məlumdur. Son illərin ən ”populyar” dərman preparatı isə antibiotiklər hesab edilir. Hətta həkimlər antibiotiklərdən uzaq durmağı tövsiyə etsələr də insanlar ”antibiotiksiz sağalmaq olmur” deyib bu dərmanları qəbul etməyə həvəslənirlər. Koronavirus zamanı da biz bunu müşahidə edirik. Bədənin hərarəti qalxan kimi insanlar təşvişə düşür. Antibiotik dərmanlar qəbul etməyə başlayır. Yaxud da ”sistem” qoşdururlar. Medicina.az-a danışan anestezioloq-reanimatoloq Şahin Məmmədov bildirib ki, koronavirus xəstələri bəzən səhv müalicə edilir. Antibiotiklər bu xəstəliyi sağalda bilməz: ”Sanki psixoloji inam var ki, antibiotik nə qədər bahalıdırsa, o qədər də kömək edəcək. Bu, kobud səhvdir. Biləsiniz ki, qoşduğunuz o təzə antibiotik qızdırmanı salmayacaq. Görəcəksiz ki, qızdırma yenə qalxır. Onda başa düşəcəksiniz ki, Şahin doktor düz deyirmiş, boş yerə pulumuz getdi. Çünki qızdırmanı verən bakteriya deyil, bir virusdur, antibiotik ona təsir edə bilməz. Boş yerə xəstə həmin antibiotikin əlavə mənfi təsirlərinə məruz qalır. Bu mənfi təsirlər ciddidir”.

**Həkim-infeksionist Mərdan Əliyev ”Şərq”ə açıqlamasında bildirdi ki, ÜST nümayəndəsinin söylədikləri ilə razıdır:**

- İradlar tamamilə doğrudur. Həmişə bildiririk ki, antibiotiklərdən reseptsiz istifadə yolverilməzdir. Antibiotiklər, əksinə, xəstənin vəziyyətini ağırlaşdırır. Antibiotiklər orqanizmə əlavə yükdür. Lap başdan TƏBİB-in koronavirusun müalicəsində açıqladığı protokolda antibiotik dərmanlar olmayıb. Yoxdur. Təəssüf ki, insanlarımız bu reallığı qəbul edə bilmir. Elə bilirlər ki, antibiotiklərdən istifadə edilməsə, sağalmayacaqlar. Bu, tamamilə yanlış düşüncədir və səhvdir. İnsanın həyatını itirməsinə səbəb ola bilər. Antibiotiklərdən o zaman istifadə edilə bilər ki, xəstəlik ağır gedişli və 2-cili infeksiya olsun. Amma bunu analizlərin, müayinələrin nəticələrinə uyğun həkim təyin etməlidir. Qardaş Türkiyədə, eləcə də Avropa ölkələrində antibiotikləri yalnız infeksionistlər təyin edir. Bizdə isə bütün terapevtlər antibiotik təyin edir. Bu, yanlışdır.

**Məlahət Rzayeva**

# Hər gün Üzeyir bəyin doğum günüdür

## Şuşanın azadlığı ilə dahi bəstəkarımızın timsalında Azərbaycan mədəni irsi işğaldan azad olundu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə**

Məlahət Rzayeva

**"Üzeyir Hacıbəylinin anım günüdür", deyirik. Məgər hər gün Üzeyir bəyin anım günü deyilmi?! Biz ki, hər səhərimizi Üzeyir bəylə açırıq. Daha doğrusu, o bizim səhərimizi açır. Dövlət himnimizin sədaları ilə. Bu səsdən, bu melodiyadan şirin, bəlkə yalnız ana laylası ola bilər. Amma yox. Deyim niyə: çünki Üzeyir bəy bu musiqini Ana Vətənə ithaf edib. Hansı yöndən baxsan dövlət himni həm də ana laylasıdır. Ona görə də dövlət himni ana laylası qədər şirindir...**

23 noyabr dahi Üzeyir Hacıbəylinin cismən ayrıldığı gündür. Cismani yoxluq insanı Vətəndən, xalqından ayırmır. Əksinə, cisim Vətən torpağı ilə qovuşur, ruhu da torpağı, insanı - bütün varlıq aləmini Yaradanla. Üzeyir Hacıbəyli yüksəkliyində şəxsiyyətlərsə daim, xalq, Vətən durduqca ürəklərdə yuva salır. Üzeyir bəy haqqında o qədər gözəl, mənalı sözlət söyləmək olar ki! Heç bilmirsən, necə başlayıb, necə bitirəsən. 1992-ci il mayın 8-dən 2020-ci il noyabrın 8-nə qədər Üzeyir bəyin qarşısında xəcalətli, həm də çox xəcalətli, başıaşağı idik. Qoruya bilməmişdik müqəddəs şəhərimizi. 28 il beləcə xəcalətli qaldıq. Hər dəfə 27 sentyabr, 23 noyabr tarixləri bizə utanc gətirdi. Nə olsun ki, Bakıda musiqi günləri də keçirilirdi, Üzeyir Hacıbəyli adına somfonik orkestrin konserti də olurdu, Leyli də, Məcnun da səhnəyə çıxırdı, Koroğlu Qıratın belinə qalxırdı... Şuşa yox idi, bizim üçün. Şuşasız idik. 2020-ci il noyabrın 8-də isə alnımız açıldı, başımız dikəldi, "biz gəldik, Şuşa!", "biz gəldik, Üzeyir bəy!", söyləyə bildik. Vüqarla, məğrur! Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin sözləri ilə desək, "Əziz Şuşa, sən azadsan!", "Əziz Şuşa, biz qayıtmışıq!", "Əziz Şuşa, biz səni dirçəldəcəyik". Prezident həmişəki kimi sözünə, vədinə sadiq qaldı. Şuşa artıq dirçəlib. Qısa müddətdə Şuşada Üzeyir bəyin yeni abidəsi də qoyuldu, ev-muzeyinin bərpası başladı. Xatırladaq ki, Şuşa Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov bir müddət öncə KİV-ə açıqlamasında bildirmişdi ki, Üzeyir Hacıbəylinin Şuşadakı ev muzeyinin bərpası layihəsi hazırdır, yaxın vaxtlarda təmir-yenidənqurma işlərinə başlanacaq. Ev-muzeyinin bərpası Heydər Əliyev Fondunun təşəbbüsü ilə baş tutacaq. Təkcə Üzeyir bəyin deyil, Molla Pənah Vaqifin məqbərəsi yenidən inşa edildi. Adı Şuşa ilə bağlı olan digər karifeylərimizin, görkəmli elm və mədəniyyət xadimlərimizin də ev-muzeyləri bərpa edilir, abidələri də ucalacaq. Bununla Azərbaycan öz mədəniyyətinə, tarixinə, adət-ənənələrinə sahib çıxdığını göstərir.



**Fəlsəfə elmləri doktoru, yazıçı-publisist, Əməkdar jurnalist Natiq Məmmədli "Şərq"ə açıqlamasında " Biz Üzeyir bəy üçün nə edə bilərik? O, bizim üçün hər şey etdi. Biz bunu edə bilərik ki, Azərbaycanı Üzeyir bəyə layiq sevək" söylədi və əlavə etdi:**

- Təraddüdsüz deyirik ki, Üzeyir bəyin ruhu şaddır, bütün şəhidlərimizin ruhu şaddır, ümumiyyətlə ölkəsinə, dövlətinə həqiqi sevgi bəsləyən, bağlı olan, lakin Şuşa niskili ilə dünyadan köçmüş insanlarımızla birlikdə. Sağ olsun, Ali Baş Komandan, cənab Prezident, xalqımıza Şuşanı qaytardı. Vuran əlinə sağlıq, Şuşa torpağına ayaq basan dizinə qüvvət, ürəyi daim təpərli igid əsgərlərimizin - Şuşanı düşməndən təmizlədilər. Mən belə hesab edirəm ki, bizim cəsur döyüşçülərimizə sıldırım qayalara dırmaşmağa kömək edən, onları Şuşa qalasını azad etməyə səsləyən, onlara kömək olan həm də Üzeyir bəyin ruhu idi. Üzeyir bəyin adı çəkiləndə həmişə mərhum şairimiz Şahmar Əkbərzadənin Üzeyir bəyə ithaf etdiyi şeiri yadıma düşür, bir misrası belədir: Adını Vətənə yaraşdırıram; Üzeyirbəycan! Bundan yüksək qiymət ola bilməz. Bir şəxsin ki adı Azərbaycanla, Vətənlə eyniləşsin, qoşa çəkilsin, adı Vətənin adına yazılsın, o dahi barədə daha başqa sözə ehtiyac da qalmır. Amma ürəyimiz doludu. Nə qədər desək də, sözlər Üzeyir dühası qarşısında yetərsiz qalır. Şükür ki, Üzeyir yurdunda onun əzəli, əbədi sahibləridir artıq. Şuşa bizimdir. O qala bizimdir. Üzeyir bəy də Şuşasına qovuşub. Üvertürası Şuşada səslənir. Şuşada "Üzeyir musiqi günləri" keçirilir. "Xarı bülbül" festivalı keçirilir. Bundan böyük xoşbəxtlik ola bilməz. Xalqımızın qəlbinə rahatlıq gətirən həm də cənab Prezidentin Üzeyir bəyin, Bülbülün, Xurşidbanu Natəvanın güllələnmiş heykəllərinin doğma şəhərlərinə qaytarılması oldu. Bunu da xatırladım ki, erməni vandalları ən çox gülləni Üzeyir bəyə "atmışdılar". Onun büstündəki güllə izləri lap çoxdur. Qələbə yenə bizim oldu. Üzeyir bəyin Şuşada yeni heykəli qoyuldu. Ev muzeyi bərpa olunur. Mən inanıram ki, Bülbülün də yeni abidəsi olacaq, Xan qızı Natəvanın da. Amma güllələnmiş heykəllərin Şuşaya qaytarılması erməni vandalizminin dünyaya sübutu üçün çox vacib idi. Eyni zamanda bununla Şuşanın bu görkəmli şəxsiyyətlərin ana yurdu olduğunu da təsdiqləyir, bilməyənlərə üçün. Bununla Şuşanın əsl sahiblərinin kimlər olduğu sübuta yetir. O güllələnmiş büstlər haqq etdikləri yerdədir. Üzeyir bəy də həmçinin. Öz doğma yurdunda, doğma şəhərindədir. Şuşanın azadlığı ilə Üzeyir bəyin timsalında Azərbaycan mədəni irsi işğaldan azad olundu. Dua var, deyirlər, Allah o dünyasını versin. Məncə, Allah Üzeyir bəyə hər iki dünyanı verib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Ərdoğan danışdı, lirə ucuzlaşdı

## Natiq Cəfərli: "Son iki ildə Türkiyənin qazancı kəskin azalıb"

**Türkiyə lirəsindən növbəti antirekord qeydə alınıb. Qardaş ölkənin milli valyutası ucuzlaşmaqda davam edir. ABŞ dolları qarşısında 7,49 faiz dəyər itirən Türkiyənin milli pul vahidi üzrə məzənnə hazırda 1 ABŞ dolları - 12,2377 lirə nisbətindədir. Sonuncu dəfə 1 ABŞ dolları 11,3853 lirəyə bərabər olub.**



Qeyd edək ki, bu, Türkiyə lirəsi üçün növbəti antirekorddur. Maraqlıdır, belə olduğu halda Türkiyə iqtisadiyyatı özünü bu çətin vəziyyətdən çıxara biləcəkmi?

**Mövcud durumu "Şərq"ə dəyərləndirən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, türk lirəsinin son bir ayda kəskin dəyər itirməsi bir çox amillərlə bağlıdır:** "Mərkəzi Bankın müstəqilliyinə dair şübhələrin artması, bank rəhbərliyinin tez-tez dəyişdirilməsi və faiz endirimlərinin davamlı şəkildə aparılması prosesə təsir göstərən əsas amillərdir. Bir neçə gün bundan öncə türk lirəsi ilə bağlı faiz endirimi baş verdi. Bu zaman Türkiyə Mərkəzi Bankı uçot dərəcəsini yenə bir faiz aşağı saldı. Halbuki, gözləntilər bunun əksinə idi. Bu, prosesə siyasi müdaxilələrin olmasından xəbər verir. Dünən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iqtisadi mövzuda çıxış etdi. Çıxışda faizlərin yenə aşağı salınacağı ilə bağlı ilkin işarələr var idi. Bu, birjalar tərəfindən o qədər də xoş qarşılanmadı. Beləcə türk lirəsi yenidən uzaqlaşdı".

İqtisadçı prosesdə əsas səbəblərdən biri kimi Türkiyənin "cari açığının" olmasını göstərib: "Türkiyənin ixracatı güclüdür. Amma ixrac etdiyi məhsulların yarıdan çoxu xaricdən alınan xammalla hazırlandığı üçün dollara olan tələbat da artır. Bir də ilin sonunda Türkiyə şirkətlərinin 10 milyardlarla dollar xarici borclarının qaytarılması məsələsi var. Dekabrda ödənişlər edilməlidir. Bu da digər tərəfdən dollara olan tələbatı artırır".

*İqtisadçı-ekspert turizmin zəif olmasının da ölkəyə valyuta axınını zəifləd tiyini söyləyib və əvvəllər bu sahədən ildə 40-45 milyard dollar qazanan Türkiyənin son iki ildə qazancının kəskin azaldığını diqqətə çatdırıb.*

Günəş Mərd

## "Sosial güzəştlərin əhatə dairəsi genişləndirilsin"

### Deputat təklif səsləndirib



**"Büdcə layihəsində ödənişli əsaslarla qəbul olmuş 1-ci və 2-ci dərəcə əlilliyi olan şəxslər təhsil haqqından azad edildiyi halda, müharibədə iştirak etmiş, lakin əlilliyi olmayan, yaxud 3-cü qrup əlilliyi olan şəxslərin təhsil haqqı problemləri ilə əlaqədar məsələ açıq qalır.**

Hesab edirəm ki, 3-cü qrup əlilliyi olan şəxslərin təhsil haqqlarından azad edilmələri üçün 1ci və 2-ci dərəcə əlilliyi olan şəxslər üçün nəzərdə tutulmuş vəsaitə uyğun məbləğ ayrılmalıdır".

"Şərq" xəbər verir ki, bu barədə Milli Məclisin deputatı Könül Nurullayeva 2022-ci ilin dövlət büdcəsinin təqdimatı zamanı belə təklif irəli sürüb. Xanım parlamentari bildirib ki, əhalinin sosial müdafiəsi gücləndirilməli, gəlirlərin artırılması dayanıqlı və məqsədyönlü xarakter daşımalıdır: "Əhalinin sosial müdafiəsini daha da gücləndirməyə nail olmaq üçün iqtisadi müstəvidə gəlirlilik və idarəetmədə səmərəlilik yüksək səviyyədə olmalıdır". K.Nurullayeva həmçinin təhsildə dövlət strategiyasını nəzərə alaraq hesab edir ki, elmi-tədqiqat işlərinə, startaplara və innovasiyalara daha çox vəsait ayrılmalıdır. Yəni yaradıcılıq kapitalı ilə beynəlxalq miqyaslı layihələrə qoşulmaqla bağlı vəsaitlər ayrılmalıdır.

## Hibrid avtomobillərin qiymətləri ucuzlaşacaq

### ƏDV-nin götürülməsi bu avtomobillərə marağı artıracaq



**Gələn ildən "Vergi Məcəlləsinə" ediləcək dəyişikliklərdən biri də istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışının növbəti 3 ildə Əlavə Dəyər Vergisindən (ƏDV) azad edilməsidir.**

Dəyişikliklərə əsasən yalnız elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı və satışı da ƏDV-dən azad ediləcək. Eyni zamanda, elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı da 3 il müddətinə sözügedən vergidən azad olunur.

**Millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov hesab edir ki, sözügedən dəyişikliklərdən sonra istehsal ili köhnə olmayan hibrid avtomobillərin qiymətində azalamlar olacaq:** "ƏDV-dən azad olma onların xərcinin orta hesabla 18 faiz azalmasına gətirib çıxaracaq. Hazırda Yaponiya istehsalı olan hibrid avtomobillərdən daha çox istifadə olunduğunu nəzərə alsaq, həmin maşınların qiymətlərində azalmaların olacağı qaçılmazdır. Söhbət təbii ki, son 3 ildə istehsal olunan avtomobillərdən gedir. Digər tərəfdən, son dəyişikliklərin qəbul olunması hibrid avtomobillərə də tələbin artmasına gətirib çıxaracaq. Elektrik mühərrikli avtomobillərin də vergidən azad olunması müsbət haldır. Bu, ölkəmizdə həmin avtomobillərdən istifadəyə marağı artıra bilər".

İsmayıl

# "Press kiosk"un əks-sədası sonra çıxacaq

## Rəşad Məcid: "Qəzet satışında maraqlı deyillər"



**Paytaxt Bakıda "Press kiosk" adlanan müasir tipli köşklər fəaliyyət göstərir. Lakin bir "amması" var. Qəzet və çap məhsullarının satışı üçün nəzərdə tutulan köşklərdə "oxucu"ya nadir hallarda rast gəlirik. Bəzən elə hallar olur ki, köşkə yaxınlaşanda hər hansı qəzetin son sayını tapa bilmirik. Satıcılardan nəsə öyrənmək istəyəndə isə belə cavab verirlər: "Qəzet indi kimə lazımdır?".**

Görünür, bu sahədə köklü dəyişikliyə zərurət yarandığı üçün Bakıdakı "Kiosk Press"lərin rəhbəri dəyişdirilib. Belə ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun əmri ilə Bakı şəhər Ticarət və Xidmət Departamentinin "Yeraltı Keçidlər üzrə Ticarət Birliyi" MMC-yə Elşad Səfərov rəis təyin olunub.

Elşad Səfərov Bakının bir sıra rayonlarını əhatə edən "Kiosk Press" adlandırılan köşklərə də rəhbərlik edəcək.

O, bundan əvvəl Vergilər Xidmətində müxtəlif vəzifələrdə çalışıb. Bakı şəhər Ticarət və Xidmət Departamentinin "Yeraltı Keçidlər üzrə Ticarət Birliyi" MMC-nin əvvəlki rəisi Seymur Mədətov isə vəzifəsindən kənarlaşdırılıb.

**Bu kadr dəyişikliyinin qəzet və jurnalların satışına təsir göstərib-göstərməyəcəyini öyrənmək məqsədilə "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidlə əlaqə saxladıq. O, "Şərq"ə bildirdi ki, "Əks-səda"nın qəzet satışı lazımi səviyyədə deyil:** "Həmişə şikayətimizi bildirmişik. Prezidentlə görüşdə ölkə başçısı qeyd etdi ki, köşklər onun təşəbbüsü ilə yaradılıb. İndi hamısı mini bazara çevrilib. Başa düşürük, onlar kirayə haqqı çox verirlər. Lakin qəzetə dırnaqarası baxılmamalıdır. Eləleri var, saat 11-12-də də köşkü açmırlar, qəzet satışında maraqlı deyillər".

Aygün Tahir

## Dördüncü doza vaksinasiyadan danışmaq hələ tezdir

### Harmancı: "Çünki dünyada bir sıra kasıb dövlətlər üçün peyvəndlər hələ də əlçatan deyil"



**4-cü doza vaksinasiya barədə danışmaq hələ ki, tezdir, çünki dünyada bir sıra kasıb dövlətlər üçün peyvəndlər hələ də əlçatan deyil.**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, hazırda bütün dünyada yeni növ koronavirus (COVID-19) infeksiyası ilə ən güclü mübarizə üsulu vaksinasiyadır. Azərbaycan koronavirus əleyhinə peyvəndləmə prosesinə ilkin başlayan dövlətlərdəndir.

"Ölkədə iki doza vaksin olunanların sayı 40 faizi üstələyib. Lakin burada önəmli olan əhalinin neçə faizinin vaksin olunmadığı deyil, kimlərin vaksin vurdurmamasıdır. Xüsusilə risk qrupuna daxil olan yaşı 60-dan yuxarı olanlar, xroniki xəstəliklərdən əziyyət çəkənlər və səhiyyə işçiləri mütləq peyvəndləmədən keçməlidirlər. Həmçinin onu da qeyd edim ki, xüsusilə iki doza vaksinin alınması şərtdir. Bu gün Prezident İlham Əliyevin də mübarizə apardığı "peyvənd milliətçiliyi" prinsipinə əsasən, 4-cü doza vaksinasiya barədə danışmaq hələ ki, tezdir, çünki dünyada bir sıra kasıb dövlətlər üçün peyvəndlər hələ də əlçatan deyil",- deyə o bildirib.

# Özəl sektorda açıq-aşkar ayrı-seçkilik var

## İqtisadçı deyib ki, Tarif Şurasının qərarı bunu göstərir



**"Hökumət alternativ enerji sektoruna sərmayə cəlb olunmasında maraqlı olduğunu bəyan edir, amma tarif siyasətində özəl sektora münasibətdə açıq-aşkar ayrı-seçkilik var".**

**Bu sözləri iqtisadçı Rövşən Ağayev deyib. Onun sözlərinə görə, Tarif Şurasının elektrik enerjisi ilə bağlı 16 oktyabr 2021-ci il qərarı bunu aydın göstərir:** "2016-cı ilin sonunda özəl kiçik su elektrik stansiyaları və külək elektrik stansiyalarından hər kilovat-saat enerjinin alış qiyməti 5 və 5,5 qəpik müəyyən edilib. Həmin qiymətlər olduğu kimi qalır, amma 2021-ci il noyabrın 1-dən dövlətin inhisarında olan istehsal müəssisələri üzrə alış qiymətində 20 faizlik, əhaliyə pərakəndə satışı həyata keçirən enerji satışı müəssisələri üçün isə az qala 30 faizlik bir artıma gedilib. Doğrudur, Azərbaycanda külək və su-elektrik stansiyalarının özəl sektora məxsusluğu demək olar ki, yox səviyyədədir. Amma məsələ münasibət və davranışdadır. Çox güman, sərmayəçilər də bunu izləməmiş deyil. Son 5 ildə baş verən xərc inflyasiyasının miqyasına baxmaq kifayətdir. Dövlətə məxsus enerji şirkətləri məhz bunu əsas götürüb tarif dəyənəyini həmişə istehlakçının baş üzərində hazır saxlayırlar. Tarif Şurasının 16 oktyabr 2021-ci il qərarı ilə əhalinin ayda 200 kilovat-saatadək (200 kilovat-saat daxil) elektrik enerjisi işlədən hissəsi üçün hər kilovat-saata görə 8 qəpik, 200 kilovat-saatdan 300 kilovat-saatadək (300 kilovat-saat daxil) elektrik enerjisi işlədən hissəsi üçün hər kilovat-saata görə 9 qəpik, 300 kilovat-saatdan çox elektrik enerjisi işlədən hissəsi üçün hər kilovat-saata görə 13 qəpik qiymət müəyyən edilib, həmçinin qeyri-əhali qruplarına satılan elektrik enerjisinin qiymətləri artırılıb".

Aynurə



# Sevda bütün günü gəzir, bu qədər pulu hardan alır?"

**"Oğluma toy edirəm pul yığmıram. Efirdə yazdıracağın pulu demə. Özünü biabır edirsən. Bu boyda oğlan 200 manat Sevda Yahyayevanın toyuna pul yazdırıb".**

Bu sözləri müğənni Nadir Qafarzadə "Həmin Zaur" verilişində deyib. O, aparıcı Zaur Kamalın müğənni Sevda Yahyayevanın toyuna 200 manat yazdırmasını ələ salıb.

Oğlu Loğmana edəcəyi toydan söz açan Qafarzadə "Gəlin iştirak edin. Məni bir ata olaraq göylərə qaldırın. Pul bir yana, səni 200 manata görə çağırmıram. Pul xərclənir gedir, insana qalan hörmətdir" sözlərini söyləyib.

Zaur isə ona "Abbas gəldi soruşdu ki, nə qədər pul yazdıracaqsan. Mən də dedim 300 manat, sonra 200 yazdırdım. Bu Sevda pulu hardan alır? Bütün günü Dubay, başqa yer gəzir" cavabını verib.

Zaurun Sevdanın xarica çox səyahət etməsi haqda dediklərinə Sevinc Səfərova "Yaxşı həyat yoldaşı seçib. Ona görə" reaksiyasını verib.

*Qeyd edək ki, Sevda həkim-genetik Zakir Bayramovla ailə qurub.*

# "Əsəbiləşsəm, aləm bir-birinə dəyər"

Mətanət Əsədova toy sahiblərinə xəbərdarlıq etdi



**"Mənim musiqiyə öz yanaşma tərzim var. Əgər toyda əsəbiləşsəm, aləm bir-birinə dəyər."**

"Şərq" xəbər verir ki, bunu "Zaurla Günaydın" verilişində qonaq olan müğənni Mətanət Əsədova deyib.

"El şənliklərində toy sahibinə "İstəyirsən məclisin gözəl keçsin?"- deyə sual verirəm. O da "Əlbəttə, istəməsəm, sizi dəvət etməzdim" söyləyir. Birincisi, məni başa düşən öz ansamblım olmalıdır. Bir baxışdan da korlana bilərəm. Əgər əsəbiləşsəm, aləm bir-birinə dəyər. Toyunuza yiyəlik edin".

Aygün

# "Nadir Qafarzadə 99 yaşında dünyasını dəyişib"

Zaur Kamal özünü gələcəyin xəbər aparıcısı kimi sınayıb



**Tanınmış aparıcı Zaur Kamal özünü xəbər aparıcısı kimi sınamaq istəyib.**

"Şərq" xəbər verir ki, Z.Kamal "Həmin Zaur" verilişində xəbər aparıcısı kimi müğənni Nadir Qafarzadənin gələcəkdə ölüm xəbərini belə səsləndirəcəyini bildirib:

"Azərbaycan incəsənətinə ağır itki üz verib. Hörmətli tamaşaçılar, Nadir Qafarzadə 99 yaşında dünyasını dəyişib".

**N.Qafarzadə isə ona gülərək cavabında bu sözləri deyib:**

"Qarğışın başına düşsün, Zaur. Məni camaatdan niyə bezikdirirsən? Ailəni, qohumu, gəlini, nəvəni - hər kəsi bezdirəcəm. 99 yaşımda kimə lazımam? Heç özümə lazım deyiləm. Maksimum 70-75 il yaşamaq istəyirəm. İndi yaşlı insanlar əziyyət çəkir. Düzdür, Allahın yazısıdır".

*Qeyd edək ki, aparıcı Zaur Kamal 50-60 yaşında xəbər aparıcısı olmaq istədiyini vurğulayıb.*

Aygün Tahir

# Nəsrin Cavadzadə hamını bəlaya saldı



## Bu səbəbdən bölümə cənazə səhnəsi əlavə edilib

**"FOX"un reytinqlərdə ilk sırada yer alan serialı "Yasak elma"nın ötən mövsüm çəkilişlərində yaşanan qalmaqal ortaya çıxıb.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, ekran işinin ssenarisində azərbaycanlı aktrisa Nəsrin Cavadzadənin ayrılma qərarı alması ilə dəyişiklik edilib. Bildirilib ki, Nəsrin yaşanan gərginliyin ardından çəkiliş meydançasını tərk edib, daha sonra həkimdən arayış alaraq telefonlara cavab verməyib. Prodüserin telefonuna cavab verməyən aktrisa bölümün tamamlanmasını riskə atıb. Bu səbəbdən bölümə cənazə səhnəsi əlavə edilib.

Bu hadisədən sonra ekran işində yer alan aktyorların müqavilələrinə ayrıca bənd əlavə edilib. Bəndə əsasən, aktyorlar müəyyən edilmiş proqrama uyğun olaraq tam dövlət xəstəxanasından alınan həkim arayışı ilə sübut edilən xəstəlik, anası və ya atasının, həyat yoldaşının, bacısının, övladının vəfatı və məhkəmə orqanlarının məcburi çağırışları və dəvətləri xaricində bir səbəbdən rolu bitmədən çəkiliş meydançasını tərk edərsə, bu vəziyyət rejissor, rejissor köməkçisi, quruluşçu nəzarətçi və icraçı prodüser tərəfindən hesabata alınacaq.

Bu halda aktyor məsuliyyət daşıdığı üçün çəkilişi tərk etdiyi gün müqabilində prodüserə 10 bölümlük qazancı qədər cəzanı ödəmək məcburiyyətindədir.

Bundan başqa aktyor, işinə xələl gətirəcək bütün müqavilə öhdəliklərinin pozulmasına görə ümumilikdə 750 min lirə cərimə ödəməlidir.

*Qeyd edək ki, N.Cavadzadə hazırda "Üç kürüş" serialında Bahar obrazını canlandırır.*



# Əkiz bacılar: "50 faiz endirimə düşən qidaları alıram"

**Müğənnilər Sevil və Sevinc Səfərovalar "Tarixin bir günü" verilişində qonaq olub.**

Sevinc Səfərova israfçı olmadıqlarını, hər zaman endirimlərdən yararlanmağa çalışdıqlarını deyib:

"Hamı kimi evə paçka-paçka makaron almışıq. İndi də marketə gedəndə endirimli malları əldə edirəm. Bəzən soruşurlar ki, nə yaxşı bu qədər məhsul ucuza başa gəlib? Deyirəm, 50 faiz endirimə düşən qidaları alıram. Niyə almayım?"

# Tənqid atəşinə tutdular

"Nu poqodi"nin yeni versiyası bəyənilmədi



**Sosial şəbəkələrdə "Nu poqodi" cizgi filminin yeni versiyası kəskin tənqid olunub.**

"YouTube"da paylaşılan treylerin altından şərh yerləri bağlı olsa da, istifadəçilər başqa platformalarda görüntüləri paylaşaraq tənqid ediblər.

Oxu.az xəbər verir ki, video bir gün ərzində cəmi 1,9 min bəyənmə toplayıb, 19 min nəfər isə bəyənməyib.

Sosial şəbəkə istifadəçiləri köhnə cizgi filmlərinin yenidən çəkilməsinə heç bir ehtiyac olmadığını vurğulayıblar, həmçinin animasiyanın keyfiyyətsizliyindən şikayət ediblər.


Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu

KURSLAR

-MÜHASİBAT (2 AY)

-Mobil telefonların təmiri (3 ay)

-KOMPYUTER (1-3 AY)

-KOSMETOLOGİYA və VİZAj (3 AY)

-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)

-Dizayn (3-6ay)

-Masaj (3 ay)

-Biçmə - Tikiş (3 ay)

-Məktəb Psixologiyası (12 ay)

Tel: (012) 489-08-84

Mob: (070) 241-28-67

www.az-baku.com


# Azercell-in dəstəyilə növbəti Uşaq Paralimpiya Oyunlarına start verildi

## Uşaqlar beş idman növü üzrə yarışlarda iştirak edəcəklər

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC-in dəstəyilə təşkil olunan Uşaq Paralimpiya İdman Oyunlarına yenidən start verilir. Uşaqların təhlükəsizliyini təmin etmək məqsədilə karantin rejiminin tələblərinə uyğun olaraq ənənəvi oyunların hər bir idman növləri üzrə ayrı-ayrı yarışlarla, azarkeşlər olmadan keçirilməsi qərara alınıb.**

2021-ci ilin Uşaq Paralimpiya İdman Oyunları çərçivəsində Sumqayıtda yerləşən Respublika Paralimpiya İdman Kompleksində pouerliftinq üzrə test yarışları baş tutub, həmçinin stolüstü tennis oyunları keçirilib. İlin sonunadək uşaq paralimpiyaçıları digər idman növləri üzrə yarışlarda da iştirak edə biləcəklər. Balaca idmançılar cüdo (26 noyabr), üzgüçülük (4 dekabr) və taekvando (10 dekabr) üzrə yarışlarda güclərini sınayacaqlar.

2014-cü ildən etibarən Azercell-in dəstəyilə fəaliyyət göstərən Azərbaycan Uşaq Paralimpiya Komitəsi indiyədək sağlamlıq imkanları məhdud olan 200-ə yaxın uşaq və yeniyetməni öz ətrafına toplaya bilib. Burada uşaqlar peşəkar məşqçilərin köməyilə 10 idman növü - cüdo, üzgüçülük, para-taekvando, pauerliftinq, boccia, qolbol, stolüstü tennis, əlil arabasında idman rəqsləri, dağ xizəyi və snoubord ilə məşğul olurlar. Onlar həmçinin, kütləvi idman tədbirləri, yerli və beynəlxalq əhəmiyyətli yarışlarda iştirak edirlər.

*Qeyd edək ki, Uşaq Paralimpiya Komitəsi beynəlxalq təcrübədə ilk dəfə olaraq 2013-cü ildə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin nəzdində yaradılıb. Komitə sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasına yardım edir. "Azercell Telekom" MMC bu mühüm missiyanı dəstəkləməklə ölkəmizdə uşaqların fiziki sağlamlığı və inkişafının təmin olunmasına öz töhfəsini verir.*


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2430



## Cenniferə haqsızlıq...

### Leonardo Di Kapriodan 5 milyon dollar az qonarar alıb

**Aktrisa Cennifer Lourens "Yuxarı baxma" filmindəki tərəf müqabili, aktyor Leonardo Di Kapriodan daha az ödəniş aldığını öyrənib.**

Axşam.az-ın xarici mediaya istinadən məlumatına görə, aktrisa mövzuya "Variety" nəşrinə verdiyi müsahibədə münasibət bildirib. O, Leonardo Di Kaprio ilə qazancları *arasındakı 5 milyon dollarlıq fərqdən (Laurensin qonorarı 25 milyon dollar, Di Kaprionun isə 30 milyon dollar)* narahat olmadığını ifadə edib. Buna baxmayaraq, o, Hollivudda qadınlarla kişilər arasında qeyri-bərabər maaş probleminin hələ də qaldığını vurğulayıb. Cennifer digər bütün sahələrdə də bu haqsızlığın qaldığını xatırladıb.

*Qeyd edək ki, Lourenslə Di Kaprio arasındakı qonorar fərqi sentyabrda nəşrin kino sənayesinin ən yüksək maaş alan ulduzları siyahısını dərc edəndə məlum olub. Aktrisa da bunu mediadan öyrəndiyini açıqlayıb.*

## Yaşlı qadın özü-özünü əməliyyat etdi

### Bundan öncə hər ehtimala qarşı, ölümqabağı məktub da yazıb





**Rusiyada qəribə hadisə baş verib. Leninqrad vilayətinin Vıborq şəhərində onkoloji xəstə olan yaşlı qadın ümidsiz vəziyyətdə özü-nü əməliyyat edib: toplanan mayenin çıxması üçün qarın boşluğunu bıçaqla kəsib.**

Oxu.az xəbər verir ki, qadın bundan əvvəl hər ehtimala qarşı, ölümqabağı məktub da yazıb.

Hadisə ilə bağlı Rusiyada "Evə hospis" ("Xospis na domu") tibb müəssisəsinin rəhbəri Yekaterina Ovsyannikova danışıb.

Onun sözlərinə görə, xərçəngə görə qadının qarın boşluğuna su toplanıb - astsit yaranıb. Bu cür fəsad zamanı yerimək, uzanmaq olmur, nəfəs almaq çətinləşir.

Təqaüdçü qadın vaxtında yardım ala bilmədiyindən, özü qarının ön divarı boyunca nazik bıçaqla kəsiklər edərək cərrahi müdaxilə - laparosentez qərarına gəlib. Tibb işçisi qadının necə tapıldığı barədə məlumat verməyib. Ancaq onun sözlərinə görə, Viborq sakininin həyatını xilas etmək mümkün olub, o, hazırda xəstəxanadadır.



# Alimlər heyrətlənib

## Afrikada COVİD tarixə qovuşub



**Peyvəndləmədə geniş imkanlar, yüksək səviyyəli səhiyyə xidmətləri, tibbi sığorta hər cür şərait olduğu halda koronavirusun sürətini azalda bilməyən Avropa ölkələrinə rəğmən inkişafdan geri qalmış bəzi Afrika ölkələrində yoluxma və ölüm faizi çox aşağı səviyyədədir.**

Bu isə elm adamlarını heyrətləndirir və düşünməyə vadar edir. Nədən? Yeni növ koronavirus ortaya çıxanda elm adamları Afrikanın inkişaf etməmiş ölkələrində yoluxma və ölüm sayının milyonlarla insanı əhatə edəcəyi proqnozu verirdilər. İndiyədək Afrikada nə qədər insanın virusa yoluxduğu və öldüyü bilinmir, amma gözlənilən fəlakət senarisi də baş vermədi. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, məsələn, Afrika ölkəsi Zimbabvedə koronavirus çoxdan keçmişdə qalmış virus hesab edilir. Siyasi partiyalar mitinqlərini keçirir, konsertlər düzənlənir, insanlar istədikləri şəkildə bir yerə toplanırlar. Zimbabve səhiyyə naziri noyabrın 22-nə olan məlumatı açıqlayaraq qeyd edib ki, ölkədə cəmi 27 yoluxma faktı müəyyənləşib, ölüm sayı isə sıfırdır. Dünya Səhiyyə Təşkilatının məlumatında da iyul ayından etibarən ümumilikdə Afrika qitəsində yoluxma sayının çox aşağı olduğu bildirilir. Kolumbiya Universitetinin mərkəzi sağlıq kürsüsü professoru Vafaa əl-Sadr deyib ki, Afrika Avropa və ABŞ kimi peyvənd imkanlarına sahib deyil, amma orada durum daha yaxşıdır. Afrikada peyvənd olunanlar cəmi 6 faiz təşkil edir. Bu da elm adamlarının ağlını qarışdırır. Bəzi alimlər hesab edir ki, buna səbəb qitədə əhali arasında gənclərin üstünlük təşkil etməsi, şəhərləşmə faizinin aşağı olması və əhalinin havada daha çox vaxt keçirməsini virusun ölümcül təsirindən qorunmada yardımçı olduğunu, genetik amillərin, həmçinin keçirilən digər parazitar xəstəliklərin koronavirusun yayılmasına əngəl törətdiyini səbəb kimi göstərirlər. Uqandada isə ötən həftə qızdırması qeydə alınmış xəstələrin COVİD-19-u digər xəstələrdən daha yüngül keçirdiyi təsbit edilib. Qızdırmanın virusu məhv etməyə yardımçı olduğunun müəyyənləşməsi də elm adamlarını yaxşı mənada heyrətə salıb. Araşdırmaların nəticəsi "Amerikan Tropikal Tibb və Təmizlik Cəmiyyəti"nin toplantısında bəyan edilib. Nigeriyada isə yoluxmanı peyvəndsiz nəzarət altına almağa çalışırlar. Nigeriya Redeemer Universitetinin Yoluxucu Xəstəliklər Mərkəzinin direktoru Kristian Happi isə "məsələ heç də hər zaman nə qədər pula, imkanlara sahib olmaqda deyil", söyləyib. Mali hökuməti isə virus ölkəyə ayaq basmadan sərhəd qapılarını bağlamağa müvəffəq olub. Edinburq Universitetinin professoru Devi Sridhar isə deyib ki, Afrika ölkələrinin özünəməxsus mədəni yanaşma tərzi var. Bu ölkələr COVİD-ə səbirlə yanaşdılar, çünki daha öncə Ebola, uşaq iflici və qızdırma xəstəliyini yaşamışdılar". Nigeriyalı virusoloq Oyevale Tomori bildirib ki, virusu "sərbəst buraxmaq" kütləvi immunitetin yaranmasına səbəb olur, nəticədə yoluxma faizi gertdikcə azalır, ölüm faizi də aşağı düşür. Hər halda bunlar afrikalı alimlərin qənaətidir.

***Zimbabvedə cəmi 27 yoluxma faktı var, ölüm sayı isə sıfırdır***




**Məlahət Rzayeva**



## Müğənnini unutdu

### Yeni eşqə başladı

**Türkiyəli aktyor Burak Dəniz yeni münasibətə başlayıb.**

**Axşam.az xəbər verir ki, aktyor restorandan çıxarkən yeni sevgilisi ilə görüntülənib.**

**Dəniz müxbirin "Keçmiş sevgiliniz Didəm Soydanla açıq-saçıq paylaşımlarına görə ayrılmısınız" sualına belə cavab verib:**

**"Heç bir əlaqəsi yoxdur, biz geri düşüncəliyik?".**

**Sosial şəbəkədə izləyicilər "Didəmi tez unutdu" deyə, şərhlər yazıblar.**

## Kəndə köçdü

### Aktrisa 7 min manatlıq ev kirayələdi



**Türkiyəli aktrisa Dilan Çiçək Dəniz şəhərdən kəndə köçüb.**

**Axşam.az xəbər verir ki, aktrisa göl kənarında 6 otaqlı ev kirayələyib. Dilan əmlak üçün aylıq 50 min lirə (təxminən 7 min 605 manat) ödəyəcək. Aktrisa evi öz zövqünə görə dekorasiya etdirib.**

***Qeyd edək ki, sənətçi sonuncu dəfə "Alev alev" serialında rol alıb.***

## Koronavirusa qarşı "işıqfor"lardan istifadə olunacaq



**Yeni Zelandiyada əhaliyə COVID-19-la bağlı risklərin çatdırılması üçün "işıqfor"lardan istifadə olunacaq. Oxu.az xəbər verir ki, bu barədə Yeni Zelandiyanın Baş naziri Casinda Ardern danışıb.**

**Sözügedən "işıqfor"ların tətbiqinə dekabrın 2-dən 3-nə keçən gecədən etibarən başlanılacaq.**

***Xatırladaq ki, noyabrın 29-da Yeni Zelandiya hökumətinin iclasında ölkənin fərqli rayonlarında hansı təhlükə səviyyəsinin (qırmızı, sarı, yaşıl) elan olunacağı müzakirə ediləcək.***



## Sevgi hər yaşda gözəldir

### Bakıda 87 yaşlı kişi 78 yaşlı qadınla evləndi





**1 saylı Bakı DOST Mərkəzi tərəfindən evində səyyar sosial xidmət göstərilən ahıl vətəndaş ailə qurub. 87 yaşlı vətəndaş Nadir Hüseynov dünən 78 yaşlı Məsumə Dadaşova ilə nikaha daxil olub.**

DOST Agentliyindən verilən məlumata görə, 1 saylı Bakı DOST Mərkəzinin əməkdaşları bu şad günlərində də vətəndaşların yanında olublar. Onları təbrik etməklə yanaşı, nikah münasibəti ilə hədiyyələr də təqdim ediblər. Nikah 3 saylı ASAN Xidmət mərkəzində baş tutub.

*Qeyd edək ki, 1 saylı Bakı DOST Mərkəzinin sosial xidmətçiləri tərəfindən Səbail rayon sakini olan Nadir Hüseynova yemək hazırlanması, zəruri ərzaq və məişət mallarının alınması, həkimin təyinatı ilə aptekdən dərman alınması, kommunal xərclərin ödənilməsi və digər xidmətlər göstərilir.*

**Mövzu ilə bağlı açıqlama verən sosioloq Lalə Mehralı bu evliliyi yüksək qiymətləndirib:** "Sevgi hər yaşda gözəldir. Nə yaxşı ki, bu yaşda özlərində cəsarəti tapıb evlənmək qərarına gəliblər. Nə yaxşı ki, xoşbəxtliyin dalınca getmək üçün yaşlarını maneə görməyiblər. Hər ikisinə xoşbəxtlik arzulayıram. Bundan sonra da xoşbəxtliklərini doya-doya yaşaya bilsinlər".

**Aynurə**

## Hakim qərar verdi

### 31 milyon ödəyəcək



**Məhkəmə adı təcavüz qalmaqallarında hallanan aktyor Kevin Speys haqqında qərara qəbul edib.**

Axşam.az xəbər verir ki, həmkarlarına qarşı seksual hərəkətlər etməkdə günahlandırılan aktyor müqaviləni pozduğuna görə "Kartlar evi" filminin yaradıcılarına 31 milyon dollar ödəməli olacaq.

*Qeyd edək ki, Speys sözügedən ittihamlara görə ekran işindən qovulub. O, 20-dən çox insana qarşı təcavüz və cinsi zorakılıqda günahlandırılıb. Onlardan biri aktyor Entoni Repp idi. O, 14 yaşı olarkən Speysin təcavüzünə məruz qalıb. Bir digər məşhur ad isə Qay Pirsdir. İttihamların ardından ekran işi milyonlarla dollar itki verib. Speys əsas rollardan birini canlandırdığı üçün serialın süjeti yenidən yazılmalı olub və epizodların sayı azaldılıb. Aktyor studiyaya təzminat ödənilməsi ilə bağlı məhkəmə qərarından apellyasiya şikayəti verməyə çalışsa da, bu, rədd edilib. Hətta aktyor ona qarşı bütün ittihamları təkzib edərək gey olduğunu açıqlayıb. Buna baxmayaraq hadisədən sonra Speysin karyerası bir anda məhv olub. Yalnız bir neçə ildən sonra o, "Allahı çəkən adam" filmi ilə ekranlara qayıdıb.*

## Məşhur cütlüyün qalmaqallı evliliyi film olacaq

### Ekran işində onların məhkəməyə təqdim etdiyi audio və video faktlardan da istifadə olunması planlaşdırılır



**Hollivud ulduzu Conni Depp və keçmiş həyat yoldaşı Ember Herdin həyatından sənədli film hazırlanacaq.**

Axşam.az xəbər verir ki, qalamaqallı şəkildə boşanan cütlüyün evliliyi haqda çəkiləcək film iki bölümdən ibarət olacaq.

Ekran işində onların məhkəməyə təqdim etdiyi audio və video faktlardan da istifadə olunması planlaşdırılır.

Yayım tarixi açıqlanmayan sənədli film "Discovery+" kanalında nümayiş etdiriləcək.

*Qeyd edək ki, Conni və Herd 2015-ci ildə ailə qurublar. Aktrisa 2016-cı ilin mayında Deppi məişət zorakılığında günahlandıraraq məhkəməyə boşanmaq üçün müraciət etmişdi. Boşanma prosesi səkkiz ay davam edib və Herd keçmiş ərindən 7 milyon dollar təzminat alıb.*